www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 may 2019-cu il Çərşənbə № 93 (7263) Qiyməti 60 qəpik

**Xəbər**

**Prezident nazir müavinlərini də xalqı dinləməyə göndərir- təfərrüat**

yazısı səh.5-də

**Gündəm**

**"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"-Prezident**



Dövlət başçısı İlham Əliyevin sədrliyi ilə 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafına yekun vuruldu, mühüm mesajlar verildi

yazısı səh.4-də

**Xalq artisti Hüseyn Abdullayevin məhkəməsində dindirildi - 4 milyonluq obyekt**

yazısı səh.6-da

**ABŞ Azərbaycan müxalifətini xilas edə biləcəkmi - səfirlə görüş**

yazısı səh.5-də

**İŞİD-in tör-töküntüləri Qafqaza gələ bilər - təhlükə**

yazısı səh.9-da

**07 modelli "tabut maşın"ların yasaqlanması gündəmdə**

yazısı səh.14-də

**Müsəlman ölkəsində dini tədris niyə təşviş yaradır?**

yazısı səh.9-da

**Futbolçu Mahir Mədətov atasının soyadından imtina etdi**

yazısı səh.10-da

**ADNA-dakı terrordan 10 il ötdü**

yazısı səh.3-də

**Qaşıqçı cinayətində daha bir sirr - MİT-in həbs etdiyi ərəb intihar edib, yoxsa...**

yazısı səh.6-da

**Düzgün diaqnoz və ucuzluq-İran klinikalarından reportaj**

yazısı səh.15-də

**Bakının "Çukur"u-"Sovetski"də nələr olur...**

yazısı səh.14-də

# ORDUMUZUN ARSENALINA YENİ DAĞIDICI SİLAH GƏLİR - TÜRKİYƏ-AZƏRBAYCAN ALYANSI GÜCLƏNİR

Müdafiə Sənayesi Nazirliyi Türkiyənin ASELSAN şirkəti ilə birgə "QFAB-250" lazer bombalarının sınaq versiyasını hazırladı; bu gün isə qardaş ölkə ilə növbəti birgə hərbi təlimlər başlayır; **erməni KİV-i:** "Bu təlimlərin əsas hədəfi odur ki..."



yazısı səh.8-də

# Fazil Məmmədov Azərbaycandakı şirkətlərini xaricə köçürür

Sabiq nazirin "Synergy Group"na daxil olan 2 şirkət ləğv olundu, İSMA-nın mağazaları fəaliyyətini dayandırdı

yazısı səh.3-də



**Hacıbala Abutalıbovla keçmiş işçisi arasında şok ittihamlar**

yazısı səh.10-da



**Elmar Məmmədyarovun 15 illi-iki rəy**

yazısı səh.7-də



**Hacı Qalib danışdı, yenə ara qarışdı**

yazısı səh.12-də



## İlham Əliyev ABŞ Dövlət Departamentinin nümayəndəsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin müşaviri Corc Kenti qəbul edib.**

ONA-nın xəbərinə görə, Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib, əlaqələrimizin siyasi, iqtisadi, ticarət, enerji, təhlükəsizlik və digər sahələrdə genişləndiyini vurğulayıb. Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri tərəfdaşlıq müstəvisində davam etdirmək niyyətində olduğunu deyən dövlətimizin başçısı son dövrlər ərzində ölkələrimiz arasında qarşılıqlı təmasların və tədbirlərin əhəmiyyətini vurğulayıb və bu müsbət dinamikanın davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Keçən ilin oktyabrında Azərbaycana səfərini xatırlayan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ikitərəfli əlaqələrimizdə olan bu müsbət dinamikanı davam etdirmək məqsədilə ölkəmizə səfər etdiyini deyib, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun ölkəmizə səfəri və onun ardınca aparılan danışıqların əhəmiyyətini vurğulayıb.



## Vladimir Zelenski rəsmən Ukrayna prezidenti elan edildi

**Vladimir Zelenski rəsmən Ukrayna prezidenti elan edilib. Virtualaz.org yerli mənbələrə istinadən xəbər verir ki, ölkənin Mərkəzi Seçki Komissiyası prezident seçkilərinin ikinci turunun son nəticələrini açıqlayıb.**

Həmin nəticələrə görə, Zelenski səslərin 73,22%-ni, Pyotr Poroşenko isə 24,45%-ni toplayıb.



## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir



"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Bu gündən problemli kreditlər üzrə kompensasiyaların ödənişinə başlanacaq

**Bu gündən etibarən kompensasiyası 500 manatdan yuxarı olan vətəndaşlar, onlar üçün ayrılmış poçt şöbələrindən məbləğlərini qeyri-nağd formada, yəni kart vasitəsilə alıb, nağdlaşdıra biləcəklər.**

"Azərpoçt" MMC-dən verilən məlumata görə, kompensasiya kartlar vasitəsilə respublika üzrə 77 şöbəsində təqdim ediləcək.



Vətəndaş "Azərpoçt"un saytı vasitəsilə məlumatları qeyd edərkən, onun kredit məbləği, kredit aldığı bank və ya BOKT, ona düşən kompensasiya haqda ətraflı məlumat ala bilir. Eyni zamanda onun kartını ala biləcəyi şöbə və ünvan həmin məlumatlar arasında qeyd olunub. Daha sonra vətəndaş orada göstərilən poçt şöbəsinə şəxsiyyət vəsiqəsi və onun surəti ilə yaxınlaşıb, zəruri sənədlərə imza atır. Bu əməliyyatlar yerinə yetirildikdən sonra vətəndaşa plastik kart və PIN kod təqdim olunur. Qeyd olunan ödənişlər həyata keçirilərkən müştərilərin eyniləşdirilməsinə, sistemdə olan məlumatlarla müştərinin şəxsiyyət vəsiqəsindəki məlumatların üst-üstə düşməsinə ciddi diqqət yetiriləcək.

Eyni zamanda PIN kodlar və kartlar müştərilərə təqdim edilərkən reyestrdə imza ediləcək və şəxsiyyət vəsiqəsinin surəti alınaraq reyestrə əlavə olunacaq. Müştərilər nəinki "Azərpoçt"un bankomatlarında və post terminallarla təchiz olunan şöbələrində plastik kart vasitəsilə, eyni zamanda Millikart MMC tərəfindən şəbəkəyə daxil olan bütün ATM-lər vasitəsilə rüsum tutulmadan, yəni komissiyasız nağdlaşdırma əməliyyatı həyata keçirə biləcəklər. Millikart MMC-nin şəbəkəsində daxil olan ATM-lər ASB (Azərbaycan Sənaye Bankı), AccessBank, Bank Melli İran, Bank of Baku, ExpressBank, Gunay Bank, NaxçıvanBank, Unibank bankları daxildir.

## "Azərbaycan da daxil olmaqla, 22 ölkədə FETÖ məktəbləri və kursları bağlandı"

**Aralarında Maldiv adaları, Azərbaycan və Rusiyanın da olduğu 22 ölkədə FETÖ ilə əlaqəli məktəb və dil kursları bağlanıb. Hazırda 75 ölkədə FETÖ ilə əlaqəli məktəblərin bir qismi hələ də fəaliyyət göstərir.**

Virtualaz.org Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu MHP-li millət vəkili Həsən Kalyonçunun FETÖ tərəfindən idarə olunan məktəblərin olduğu dövlətlərlə bağlı sualını cavablandırarkən bildirib.

O qeyd edib ki, Türkiyə Maarif Fondu tərəfindən nazirliyin rəhbərliyi ilə aparılan işlər nəticəsində 22 xarici ölkədə FETÖ ilə bağlılığı olan məktəb və dil kursunun fəaliyyəti dayandırılıb. Bunlar Rusiya, Azərbaycan, Türkmənistan, Tacikistan, Özbəkistan, Qəmbiya, Liviya, İordaniya, Dominikan Respublikası, Haiti, Ruanda, Küveyt, Mərakeş, Tunis, Çernoqoriya, Maldiv adaları, Madaqaskar, Fildişi Sahili, Serbiya, Seneqal, Venesuela və Omandır.

"18 ölkədə-Qvineya, Somali, Nigeriya, Sudan, Konqo Respublikası, Mavritaniya, Mali, Çad, Seneqal, Tunis, Qabon, Kamerun, Fil Dişi Sahili, Konqo Demokratik Respublikası, Ekvatorial Qvineya, Venesuela, Pakistan və Əfqanıstanda FETÖ ilə əlaqəli məktəblər Türkiyə Maarif Fonduna tərəfindən təhvil alınıb. 75 ölkədə isə (Almaniya, ABŞ, Gürcüstan, Hindistan, Polşa, Rumıniya, Yunanıstan və sair) FETÖ ilə bağlılığı olan məktəblərin bir qismi hələ də fəaliyyət göstərir", - deyə M. Çavuşoğlu qeyd edib.



## Borca görə axtarışda olan daha 9 nəfər saxlanıldı

**Aprelin 29-dan 30-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 21 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 8 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 31 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 4 nəfər, borclu şəxs qismində axtarışda olan 9 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 1 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 8 nəfər ölüb, 1 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 9 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 34 nəfər saxlanılıb.



## Həcc ziyarətinə getmək üçün 620 nəfər müraciət edib

**Bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün 620 nəfər müraciət edib. Bu haqda ONA-ya Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) məlumat verilib. Bildirilib ki, hazırda sənəd qəbulu davam edir: "Həcc ziyarətinə getmək üçün 1440 nəfərlik kvota qoyulub. Bu limit qurtaranda sənəd qəbulu da bitəcək".**

Qeyd edək ki, bu il Həcc ziyarətinin qiyməti 4 285 ABŞ dollar təşkil edir.

## Mayda Bakıda hava necə olacaq?

**May ayına olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən virtualaz.org-a verilən məlumata görə, may ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə normadan bir qədər yüksək olacağı gözlənilir.**

Aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı ehtimal olunur.

Birinci ongünlüyün ortalarında hava şəraitinin bəzi yerlərdə fasilələrlə yağıntılı keçəcəyi gözlənilir.

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 18-21 dərəcə isti (gecələr 13-18, gündüzlər 19-24, bəzi günlərdə 27-32 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı (norma 18-21 mm) gözlənilir.

## Kərbəlada qum fırtınası: 5 ölü, 80 yaralı

**İraqın cənub hissəsində qum fırtınası nəticəsində 5 nəfər ölüb, 80 nəfər yaralanıb. Virtualaz.org-un yerli KİV-ə isinadən məlumatına görə, İraq Səhiyyə Nazirliyi Kərbəla və Nəcəfdə qum fırtınasının daha güclü olduğunu açıqlayıb.**

Bildirilib ki, Kərbəlada 4, Nəcəf şəhərində isə 1 nəfər ölüb.

Qum fırtınası səbəbindən bina və divarların çökməsi də qeydə alınıb.

## Ötən il Azərbaycandan 5 uşaq əcnəbilərə övladlığa verilib

**"2018-ci ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə (AQUPDK) övladlığa götürmə ilə bağlı əcnəbi və vətəndaşlığı olmayan şəxslər tərəfindən 13 müraciət daxil olub".**

Bunu ONA-nın sorğusuna cavab olaraq AQUPDK-nın Hüquqi təminat şöbəsinin Ölkələrarası övladlığa götürmə sektorunun müdiri Vəfa Ələkbərova deyib.

O bildirib ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslər tərəfindən 2018-ci ildə Azərbaycan vətəndaşı olan 5 uşaq övladlığa götürülüb: "Uşaqlar Hindistan, İran, Türkiyə, Avstriya və Bolqarıstan vətəndaşları tərəfindən övladlığa götürülüblər".

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

# ADNA-dakı terrordan 10 il ötdü

## Təhsil naziri qanlı hadisənin qurbanlarının anım mərasiminə qatılıb

**Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) (indi Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - red.) törədilən terror hadisəsindən 10 il ötür. Təhsil naziri Ceyhun Bayramov 10 il bundan əvvəl ADNA-da baş verən terror hadisəsi nəticəsində həlak olan tələbə və müəllimlərin xatirəsini anıb. "Report" xəbər verir ki, bununla əlaqədar ali təhsil müəssisəsinə gedən təhsil naziri təhsil ocağının dəhlizində hadisə ilə əlaqədar qoyulan barelyefə baxış keçirib.**








Nazir şəxsi facebook səhifəsində hadisə ilə əlaqədar başsağlığı da verib. Başsağlığında deyilir:

"Azərbaycan Dövlət Neft və Sənaye Universitetində törədilən terror aktından 10 il keçir. İnsan tələfatı ilə nəticələnən qanlı qətl hadisəsi zamanı dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir və ailə üzvlərinə başsağlığı verirəm. Bu məşum hadisə şiddətə, terrora yox deməyə, bizi birləşdirən insani dəyərləri daha çox bölüşməyə səsləyir".

Yada salaq ki, 2009-cu il aprelin 30-da səhər saatlarında ADNA-nın Bakı şəhəri Dilarə Əliyeva küçəsi, 227 ünvanında yerləşən ikinci korpusuna daxil olan Gürcüstan vətəndaşı, 1980-ci il təvəllüdlü Fərda Qədirov binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açıb.

F.Qədirov hadisə zamanı 12 nəfəri öldürüb, 13 nəfəri yaralayıb. Sonra özünü də öldürüb.

Qeyd edək ki, faktla bağlı Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürmə, qaçaqmalçılıq, qanunsuz olaraq odlu silah, döyüş sursatı əldəetmə, saxlama, daşıma və gəzdirmə və qanunsuz olaraq narkotik vasitələri əldəetmə, saxlama və daşıma maddələri ilə cinayət işi açılıb.

Hüquq-mühafizə orqanlarının apardığı araşdırmadan sonra məlum olub ki, terror aktı törədən Fərda Qədirov erməni xüsusi xidmət orqanlarının sifarişini yerinə yetirib.

İttihama görə, cinayətin təşkilatçısı Gürcüstan vətəndaşı, erməni əsilli Mardun Qumaşyandır. O, müttəhimlərlə cinayət əlaqəsinə girərək, onları Bakıda azərbaycanlılara qarşı terror aktı törətməyə razı salıb. İstintaq hesab edib ki, Qumaşyan terrorçuluğu maliyyələşdirərək bu cinayətin təşkili və həyata keçirilməsi üçün onlara ümumilikdə 50 min ABŞ dolları məbləğində pul verəcəyini vəd edib. O, əvvəlcədən Fərda Qədirova 5 min ABŞ dolları məbləğində pul verərək, qalan məbləği cinayət törədildikdən sonra verəcəyi, eləcə də Fərda Qədirov tərəfindən hələ 2008-ci il noyabrın 8-də Tiflisdə odlu silah satışı mağazasından aldığı "Makarov" tipli tapança və 200 ədəddən artıq patronların qanunsuz olaraq Azərbaycana keçirilməsi barədə razılığa gəlib.

İbtidai istintaq Fərda Qədirovun ruhi xəstə olduğunu müəyyən edib. Belə ki, o, əvvəlcədən videomüraciət yazıb və orada bu cinayəti Azərbaycan cəmiyyətinə nifrət etdiyinə görə törətdiyini deyib. F.Qədirovun ölümündən öncə mobil telefonuna yazdırdığı videomüraciət yerli televiziyalarda nümayiş etdirilib. Fərda Qədirov Gürcüstana gəlməmişdən öncə Rusiyada yaşayıb.

Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə Neft Akademiyasında törədilən kütləvi qətllə bağlı məhkəmə keçirilib. İşlə bağlı Cavidan Əmirov, Nadir Əliyev, Arif Qabulov və Nəcəf Süleymanov cəzalandırılıblar.

Onlardan Arif Qabulov 11 il müddətinə, digərləri isə ömürlük azadlıqdan məhrum ediliblər.

**Terror zamanı həyatını itirən şəxslərin siyahısı belədir:**

**1.** Məmmədov Taleh Tariyel oğlu, 1980-ci il təvəllüdlü (Sumqayıt şəhəri)

**2.** Qurbanova Ayna Abbasqulu qızı, 1957-ci il təvəllüdlü (Salyan şəhəri)

**3.** Əzizova Tamilla Zülfüqar qızı, 1951-ci il təvəllüdlü (Bakı şəhəri)

**4.** Bəndəliyev Yusif Telman oğlu, 1989-cu il təvəllüdlü (Cəlilabad şəhəri)

**5.** Abdullayev Ramiz Xəlil oğlu, 1940-cı il təvəllüdlü (Bakı şəhəri)

**6.** Vahidov Məcnun Abdulvahid oğlu, 1946-cı il təvəllüdlü (Bakı şəhəri)

**7.** Aslanov Ceyhun Sakit oğlu, 1988-ci il təvəllüdlü (Şirvan şəhəri)

**8.** Abdullayev Emin İmaməli oğlu, 1989-cu il təvəllüdlü (Daşkəsən şəhəri)

**9.** Babaşov Ruslan Cəfər oğlu, 1990-cı il təvəllüdlü (Sabirabad rayonu)

**10.** Bağırov Ayaz Cavanşir oğlu, 1988-ci il təvəllüdlü (Bakı şəhəri)

**11.** Məmmədova Şəfa Afət qızı, 1978-ci il təvəllüdlü (Bakı şəhəri, Füzuli küçəsi)

**12.** Cabbarov Savalan Allahverdi oğlu, 1987-ci il təvəllüdlü (Bakı şəhəri)

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Fazil Məmmədov Azərbaycandakı şirkətlərini xaricə köçürür

## Sabiq nazirin "Synergy Group"na daxil olan 2 şirkəti ləğv olundu, İSMA-nın mağazaları fəaliyyətini dayandırdı

**Sabiq vergilər naziri Fazil Məmmədovun böyük biznes imperiyasının Azərbaycan daxilindəki aktivlərinin "milliləşdirilməsi" prosesi yeni mərhələyə qədəm qoyub. Onun 2010-cu ildə təsis etdiyi "Synergy Group" MMC-yə daxil olan "Blossom Property" və "Blossom House" şirkətlərinin könüllü ləğvi elan edilib. 2013-cü ilin sonunda Bakı şəhəri, Süleyman Rüstəm küçəsi 9 ünvanında, kapitalına 10 min manat qoyulmuş "Blossom" firma adlı 5 şirkət təsis edilib. "Blossom Property" MMC-nin direktoru İlkin Quliyevdir. O, həmçinin Şəmkir rayonunda yerləşən "Synergy Capital Group" MMC-yə rəhbərlik edir. Mürsəl Əliyev "Blossom Mart" şirkətini idarə edir. Bu şəxs "Synergy" qrupuna aid bir çox şirkəti idarə edir. Digər şirkətlərə ("Blossom Capital", "Blossom House" və "Blossom Group") direktor təyin edilməyib.**



Bundan başqa, Azərbaycanın ilk milli velosiped brendi İSMA-nın mağazaları fəaliyyətini dayandırıb. Bakıda Heydər Əliyev prospektində və "20 Yanvar" metro stansiyası yaxınlığında yerləşən mağazalar bağlıdır. Eyni zamanda isma.az saytının işləməməsi də diqqəti cəlb edir. Faktı İSMA brendinin daxil olduğu "Synergy Group"dan da təsdiq ediblər.

**"Synergy Group"un marketinq direktoru Murad Mirzəyev "Marja"ya açıqlamasında bildirib ki, İsmayıllı Velosiped Zavoduna məxsus mağaza fəaliyyətini dayandırıb. Hazırda İSMA velosipedlərinin satışı zavodun dilerləri vasitəsilə həyata keçirilir:** ""20 Yanvar" metro stansiyası yaxınlığında yerləşən mağazamızın fəaliyyətini dayandırması ünvanın dəyişdirilməsi ilə bağlıdır. Yeni əlverişli yer müəyyən edildikdən sonra mağaza yeni ünvanda, yeni konseptdə fəaliyyətini bərpa edəcəkdir. Heydər Əliyev prospektindəki İSMA mağazası isə dilerə məxsus idi. Dilerin verdiyi məlumata görə, həmin ünvan satış üçün əlverişli olmadığından bağlamaq qərarı verib". Murad Mirzəyev əlavə edib ki, hazırda İSMA velosipedlərinin satışı ilə Bakı şəhərində "Maqnit" mağazalar şəbəkəsi, regionlarda isə dilerlər məşğul olurlar: "Mağazanın anbarında olan velosipedlər "Maqnit" mağazalar şəbəkəsinə təhvil verilib. Bu da bizə imkan verir ki, yeni konsepsiya, satış planları və ünvanların seçilməsi barədə rahat düşünək".

Murad Mirzəyev bildirib ki, zavod fəaliyyətini dayandırmayıb. Zavodun isma.az saytının işləməməsi isə texniki problemdir, tezliklə sayt fəaliyyət göstərəcək.

Fazil Məmmədov vəzifəsindən çıxarılandan sonra Gəncədəki obyektlərində təftiş başladığı deyilirdi. Hazırda Gəncə Beynəlxalq Xəstəxanasının da Fazil Məmmədovun nəzarətindən çıxarılmasına yönələn prosesin başlandığı da iddia edilir. F.Məmmədov uzun illər Azərbaycanın iri məmur oliqarxları sırasında qərarlaşan əsas fiqurlardan olub. 2000-ci ildə vergilər naziri təyin olunana qədər 1-2 milyonu böyük para hesab edən Fazil Məmmədov 2017-ci ildə vəzifədən çıxarılarkən sərvəti 100 milyonla ölçülə biləcək qədər artmışdı. Onun böyük biznes imperiyası var.

17 il Vergilər Nazirliyinə rəhbərlik etmiş F.Məmmədov həmin dövrdə vergi şəklində yığılan 4 milyard manata yaxın vəsaitin büdcədən yayındırılaraq ofşorlara yönləndirildiyi barədə xəbərlər yayılıb və bu günə qədər təkzib edilməyib. Sabiq nazirin ata yurdu Şəmkirdə isə demək olar ki, hər tində bir müəssisəsi, fabriki, istixanaları, quşçuluq fabrikləri və s. biznes strukturları var. Fazil Məmmədovun qohum-qardaşının yaşadığı Şəmkir rayonunda 5 il əvvəl salınan parka görə büdcədən nə az, nə çox, düz 830 milyon manat silinib. Faktiki isə parkda görülən işlərin dəyəri 83 milyon manatdan da az olub. Fazil Məmmədov nazirliyi dövründə Azərbaycan iqtisadiyyatına yönəlməli olan milyardları xarici ölkələrdə öz biznes şəbəkəsini yaratmağa sərf edib. Belə ölkələrdən biri də Ukraynadır. Fazil Məmmədovun Ukrayna paytaxtında 5 ulduzlu hoteli, siqaret, təkər zavodu və böyük bazarı var. Hotel Kiyevin mərkəzində, "11 Mirrors Design Hotel" adlanır. Kiyevdəki "Vladimirski" bazarı sabiq vergilər nazirinin böyük biznesinin kiçik bir parçasıdır. Kiyevdəki bazarlar arasında böyüklüyünə görə ilk üçlükdə olan bu bazarda paltar və meyvə-tərəvəz satılır. Sabiq nazirin Ukraynanın kurort şəhəri Truskovetsdə də olduqca lüks hoteli var. Həmin hotel "Mir" adlanır. Nazirin hotelində ən müxtəlif kateqoriyadan nömrələr var. Bu nömrələr arasında "Prezident stili" kateqoriyasından olanlar xüsusi diqqət çəkir. Hotelin ölçücə ən böyük olan bu nömrəsi 126 kvadratmetrdir. Bunlar sabiq nazirin xaricdəki böyük biznesi haqda kiçik məlumatlardır. Azərbaycanda vəzifədə olarkən sabiq nazirin kurasiyasında bir neçə rayon vardı. Binəqədi, Şəmkir, Gədəbəy və Yardımlı rayonları sabiq nazirin qeyri-rəsmi "qubernatorluğuna" daxil idi. Həmin dövrlərdə Gədəbəydəki istirahət mərkəzlərinin demək olar ki, hamısı F.Məmmədovun kurasiyasında idi. Rayonda Narzan adlanan istirahət zonasındakı istirahət mərkəzi, "Eldorado" hoteli və çoxsaylı obyektlər Fazil Məmmədova hər gün milyonlar qazandırırdı. Fazil Məmmədov vergilər naziri postundan çıxarılandan sonra özünün və yaxınlarının adına rəsmiləşdirdiyi əmlakları digər şəxslərin adına keçirməsi haqda məlumatlar yayılmışdı.

Məlum olmuşdu ki, Fazil Məmmədov nazir postunda ikən Şəmkirdə inşa etdirdiyi müxtəlif tikililəri "özgəninkiləşdirməklə" əlindən çıxarılmasını önləmək istəyib, lakin yayılan son məlumatlar onu deməyə əsas verir ki, sabiq nazirin böyük biznesinin gizlədilmiş parçaları da "budanma"dan kənar qalmayacaq... Daha bir iddia da budur ki, Fazil Məmmədov Azərbaycandakı şirkətlərini xaricə köçürür.

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

**Aprelin 30-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**



# “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” - Prezident

## Dövlət başçısı İlham Əliyevin sədrliyi ilə 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafına yekun vuruldu, mühüm mesajlar verildi

AzərTAc xəbər verir ki, dövlət başçısı İlham Əliyev keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi. “İslahatlara alternativ yoxdur” deyən, prezident İlham Əliyev vurğulayıb ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlət başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu bildirib. Qeyd edib ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən prezident İlham Əliyev minimum əmək haqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirib, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğulayıb.

“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik”, - deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlət başçısı bildirib ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

Sonra prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirib. Dövlət başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışıb. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirib ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş verən zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşlarını əmin edib ki, dövlət hər zaman onların yanında olacaq.

Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə edib.

# Qida təhlükəsizliyi üzrə proqram necə icra olunacaq?

## Eyyub Hüseynov: “Bu, çox vacib sənəddir”...

**Aprelin 29-da prezidentin sərəncamı ilə “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub. Proqramda qeyd olunur ki, hazırda dünyanın hər bir qitəsində qida mənşəli xəstəliklərə yoluxma və qida zəhərlənməsi hallarının artması müşahidə olunur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2017-ci il üçün hesabatına əsasən, dünyada hər il 600 milyon insan, yəni dünya əhalisinin hər on nəfərindən biri qida məhsullarından zəhərlənir. Hər il qida məhsullarından zəhərlənənlərin 420 min nəfəri ölür ki, bunun da 125 mini və ya 30 faizi beş yaşınadək uşaqlardır.**



Avropa İttifaqına üzv dövlətlərdə və digər inkişaf etmiş ölkələrdə qida sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri məhsulların təhlükəsizliyinə görə birbaşa məsuliyyət və öhdəlik daşıyırlar, tənzimləyici qurumlar isə nəzarət tədbirlərini həyata keçirməklə icranın vəziyyətini yoxlayırlar. Qida təhlükəsizliyinin təmin olunmasında beynəlxalq təşkilatların və müvafiq konvensiyaların rolu böyükdür. FAO, ÜST, Kodeks Alimentarius Komissiyası, “Bitki mühafizəsi haqqında” Beynəlxalq Konvensiya, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı milli qida təhlükəsizliyi orqanları ilə əməkdaşlıq edir, qida təhlükəsizliyi proqramlarının beynəlxalq səviyyədə qəbul edilmiş qərar və tövsiyələrə, habelə beynəlxalq qida standartlarına uyğunlaşdırılmasında onlara kömək göstərirlər.

Bütün bunları nəzərə almaqla, proqramı hazırlayanlar sənədin icrası nəticəsində bir sıra hədəflərə çatmaq niyyətindədirlər. Bunlar qida təhlükəsizliyinə dair norma və qaydaların mövcud beynəlxalq tələblərə uyğunlaşdırılması, laboratoriya analizlərinin nəticələri ilə bağlı dəqiqlik göstəricisinin 95 faizə çatdırılması, qida mənşəli zəhərlənmə hallarının sayının azaldılması, ixrac olunan qida və kənd təsərrüfatı məhsullarından idxalçı ölkələrin imtina etməsi hallarının minimuma endirilməsi, bitki mühafizəsi vasitələrindən yanlış istifadə ilə bağlı yaranan zəhərlənmə hallarının azaldılması, qida təhlükəsizliyi ilə bağlı aparılan fundamental və tətbiqi tədqiqatların sayının iki dəfə artırılması və qida təhlükəsizliyi üzrə qabaqcıl idarəetmə sistemlərinin tətbiqinin iri müəssisələrdə 90 faiz, orta müəssisələrdə 50 faiz səviyyəsinə çatdırılmasıdır.

Proqramın icrası məqsədilə hazırlanmış tədbirlər planından aydın olur ki, ölkədə “Qida təhlükəsizliyi haqqında” qanunun layihəsi, qida məhsullarının, baytarlıq və fitosanitar nəzarəti tətbiq olunan yüklərin ölkəyə idxalına nəzarət üçün yeni mexanizmin, insan sağlamlığı üçün təhlükəli hesab edilən və yüksək risk daşıyıcısı olan qida məhsullarının geri çağırılması və yığışdırılması ilə bağlı mexanizmlərin hazırlanması, xüsusi təyinatlı qida məhsullarının (pəhriz, uşaq yeməkləri və s.) istehsalına, emalına və dövriyyəsinə dair tələblərin və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, özəl baytarlıq xidməti subyektlərinin yaradılmasının və inkişaf etdirilməsinin, baytarlıq-sanitariya və sanitariya epidemioloji tələblərə cavab verən özəl heyvan kəsimi və satışı məntəqələrinin yaradılmasının dəstəklənməsi, həmçinin qida təhlükəsizliyi üzrə vahid elektron informasiya sisteminin yaradılması, istehlakçıların qida təhlükəsizliyi baxımından hüquqlarının qorunması ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi və müvafiq sahədə aşkarlanan qanun pozuntularına operativ müdaxilə sisteminin işlənib hazırlanması, “Halal” sertifikatının verilməsinə dair mexanizmlərin formalaşdırılması və tətbiqi ilə bağlı işlər görüləcək.

**Yeni dövlət proqramının ölkədə qida təhlükəsizliyinin təmin olunmasına təsirlərini dəyərləndirən ekspert, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun “Yeni Müsavat”a dediyinə görə, belə bir sənəd çoxdan hazırlanmalı idi:** “Qida təhlükəsizliyinə dair proqram son dərəcə vacib bir sənəddir. Bu baxımdan, onun təsdiqlənməsi müsbət haldır. Çox təəssüflər olsun ki, Azərbaycanda hələ də qida təhlükəsizliyinə dair qanun yoxdur. Həmin qanunun hazırlanması proqramın tədbirlər planına daxil edilib. Proqramdan gözləntilərimə gəlincə, Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyinin əsasnaməsi çox təkmil və müasir tələblərə cavab verən bir sənəddir. Onun effektiv icrası Azərbaycanda postneft dövrü üçün ən böyük və ən uğurlu fəaliyyət istiqamətlərindən biri ola bilər. Amma gəlin görək yaradılmış struktur - Agentlik bu əsasnaməyə nə dərəcədə effektiv əməl edir? Bu suala müsbət cavab vermək qeyri-mümkündür. Eləcə də təsdiqlənən proqram. Onun da icrasına rəhbərliyi Qida Təhlükəsizliyi Agentliyi edəcək. Bu səbəbdən də düzünü deyim, sənədin uğurlu icrasını gözləmirəm”.

**Birlik rəhbəri AQTA-nın fəaliyyətini qənaətbəxş hesab etmir:** “Agentlik yaranandan ictimaiyyətlə mükəmməl iş apara bilmir. Bu sahədə fəaliyyəti çox primitivdir. Ölkənin bütün təbəqələrini, iqtisadiyyatın bütün sahələrini əhatə edən bir sənəd hazırlayıblar, amma bir dəfə də olsun onun ictimai müzakirəsini keçirməyiblər. Ölkədə istehlakçı hüquqlarını qorumaq sahəsində ixtisaslaşmış Azad İstehlakçılar Birliyini proqramın hazırlanması işlərinə cəlb etməyiblər. Halbuki qida təhlükəsizliyinin təmin olunması sahəsində böyük tədqiqatların, siyasət sənədlərinin müəllifiyik. Məsələn, 2008-ci ildə Avrasiya Fondunun dəstəyi ilə Cənubi Qafqaz ölkələrini əhatə edən bir sənəd hazırlanıb. ”Avropa Qonşuluq Siyasətində ərzaq məhsullarının təhlükəsizliyinin təmin olunması üçün regional siyasət" adlı bu sənəd 300 səhifədən ibarətdir. Yaxud USAİD-in 5 illik layihəsi olub - “Azərbaycanın ərzaq məhsullarının rəqabətədavamlılığı” adlı. Azad İstehlakçılar Birliyi olaraq bu layihədə aktiv iştirak etmişik. Bu sənədlərin, layihələrin nəticələri Agentlik tərəfindən nəzərə alınmır. Bizim kifayət qədər geniş məlumat bazamız var, amma onlar bundan istifadə etməyi özlərinə sığışdırmırlar. Buna görə də düşünürəm ki, yeni təsdiqlənən proqramın icrasında Agentlik hər hansı ciddi uğur əldə edə bilməyəcək. Çünki bazar inzibati mexanizmləri sevmir. Bazar istehlakçı maraqları fonunda formalaşan bir strukturdur".

**E.Hüseynov hesab edir ki, AQTA ictimaiyyətlə əlaqələrinə yenidən baxıb əməkdaşlıq yolunu tutmasa, Azərbaycanın qida təhlükəsizliyinə təhdidlər qalmaqda davam edəcək:** “Bu, Azərbaycanda geniş yayılmış problemdir, təəssüf ki. Dövlət başçısının vəzifəyə təyin etdiyi şəxslərin tezliklə ayaqları yerdən üzülür, başlayırlar göydən getməyə. Bu baxımdan, hesab edirəm ki, Qida Təhlükəsizliyi Agentliyinin rəhbərliyi göydən yerə enib, ictimaiyyətlə əməkdaşlığa başlamalıdır. Əks halda, vətəndaş cəmiyyətinə, istehlakçıya, sahibkara barmaq silkələməklə heç nəyə nail ola bilməyəcəklər”.

**❑ DÜNYA,
“Yeni Müsavat”**

# Prezident nazir müavinlərini də xalqı dinləməyə göndərir - təfərrüat

## Fəzail Ağamalı: "Bu məsələ prezident İlham Əliyevin idarəçilik sisteminin mahiyyətinə və fəlsəfəsinə tamamilə uyğundur"

**Bir neçə ildir nazirlər və komitə sədrləri prezidentin tapşırığına əsasən şəhər və rayonlarda yerli əhalinin qəbulunu keçirir. Sakinlərin şikayətləri və təklifləri birbaşa onların özlərindən dinlənilir. Problemlərin həlli istiqamətində addımlar atılır. Artıq nazirlər və komitə sədrlərinin müavinləri də bundan sonra rayonlara gedəcək və xalqla, yerli əhali ilə görüşəcək. İki gün öncə bu səfərlərin qrafiki də açıqlanıb. Beləliklə, əvvəlki aylarda keçirilmiş görüşlərdən fərqli olaraq, bu dəfə təkcə nazir və komitə sədrləri deyil, onların müavinləri də yerlərə birbaşa xalqın hüzuruna göndərilir.**

**Deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a bildirdi ki, bu məsələ prezident İlham Əliyevin idarəçilik sisteminin mahiyyətinə və fəlsəfəsinə tamamilə uyğundur, onun tərkib hissəsidir: "Dəfələrlə ölkə prezidenti müxtəlif yerlərdə, regionlarda, açılışlarda əhali ilə görüşlər keçirir, vətəndaşlarla açıq və səmimi şəkildə söhbət aparır, onları dinləyir. Bu, bütün kütləvi informasiya vasitələri ilə yayılır. İnsanlar da müəyyən problemlərinin olmasını ifadə edirlər və həmin problemlərin həllini cənab prezidentdən xahiş edirlər. Beləliklə, bu cür təmaslar ölkədə problemlərin həllinə çox ciddi və müsbət təsirini göstərir, töhfələrini verir. Ayrı-ayrı nazirlər, komitə sədrləri də neçə ildir ki, bu cür görüşlərdə iştirak edirlər, prezidentin tapşırığı əsasında rayonlarda əhali ilə görüşürlər. Hər kəs öz sahəsi üzrə insanların qarşısında duran problemlərin həlli üçün birbaşa yerindəcə müdaxilə edirlər. Çünki onlar yerlərə gedəndə müvafiq qurumun idarə rəhbərləri, şöbə müdirləri və yerli qurumların rəhbərləri də orada iştirak edirlər. Beləliklə, vətəndaşın şikayətləri, problemləri yerindəcə həll olunur. Bu, çox müsbət bir yanaşmadır və xalqla məmurlar arasında normal ünsiyyətin, birbaşa təmasın qurulmasında ciddi rol oynayır. Bildiyim qədər artıq icra başçıları da rəhbərlik etdikləri rayonda əhali ilə birbaşa təmaslar, görüşlər keçirirlər. Artıq qapılar vətəndaşların üzünə açılır. Onlar süründürməçiliklə çox nadir hallarda rastlaşırlar.



Nazirlərin və komitə sədrlərinin müavinlərinin də bu prosesə qoşulması çox faydalıdır. Çünki bildiyiniz kimi, ayrı-ayrı nazirlərin və komitələrin sədrlərinin müavinləri konkret sahələr üzrə kurasiyanı həyata keçirir. Onlar hərəsi öz kurasiya etdiyi sahə üzrə yerlərdə hansı problemlərin olduğunu birbaşa sakinlərdən öyrənib problemlərin həlli üçün addımlar atmalıdırlar. Hesab edirəm ki, nazirlərin və komitə sədrlərinin də yerlərdə xalqla görüşlərində əsas məqsəd budur".

**Deputat vurğuladı ki, bir çox nazirliklərin və dövlət komitələrinin regionlarda şöbələri, regional idarələri var. Qanuna görə, bu qurumlara icra başçılarının müdaxilə etmək hüququ yoxdur. Ona görə də icra başçıları istəsələr də bu qurumlarla əlaqəli problemi həll edə bilmirlər. Həmin problemin həllinin sürətləndirilməsi üçün nazirlərin və komitə sədrlərinin müavinlərinin də rayonlara gedib əhali ilə görüşməsi məqsədəuyğundur:** "Mövcud problemlərin daha çevik həyata keçirilməsinə bu iş öz töhfəsini verəcək. Nazir və ya komitə sədri ayda bir dəfə bu və ya digər regiona gedir və bir neçə qonşu rayonlardan olan sakinlər də onun qəbuluna gəlirlər. Bu təcrübə yaxşıdır, lakin bütövlükdə bütün rayonlarda vətəndaşların qəbul edilməsində, problemlərinin həll olunmasında çevikliyi və kütləviliyi təmin eləmir. Ona görə də kütləviliyi və hər kəsi əhatə etmək üçün müavinlər hər bir rayona getməlidirlər. Hər bir rayonda vətəndaşlarla görüşlər keçirməlidirlər. Yaxşı olar ki, həmin səfərlər bir yox, bir neçə nazirliyin, komitələrin rəsmilərinin birlikdə etdiyi səfərlər şəklində reallaşdırılsın. Məncə, bu yolla yerlərdə vətəndaşların problemləri dərhal həll oluna bilər və o problemlərin həlli ölkə prezidenti və birinci vitse-prezident səviyyəsinə çatmaz".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# ABŞ Azərbaycan müxalifətini xilas edə biləcəkmi - səfirlə görüş

## REAL rəsmisi: "Amerika səfirinin müxalifətlə görüşlərinin, onları dinləməsinin əsas hədəfi ölkədə önü görülməyən proseslərin…"

**ABŞ-ın Azərbaycandakı yeni səfiri Örl Litzenberqer martın 7-dən Bakıda fəaliyyətə başladıqdan sonra iqtidar nümayəndələri, universitet rektorları, vətəndaş cəmiyyəti institutları təmsilçiləri ilə görüşlər keçirib. Müxalifətlə bu cür görüşlərin olmaması ortaya suallar çıxarmışdı.**

İki gün öncə isə bəlli oldu ki, səfir Örl Litzenberqer müxalifət cinahı ilə görüşlərə start verib. Azadlıq.info-nun yaydığı xəbərdə deyilir ki, yeni səfirin aprelin 26-da AXCP sədri Əli Kərimli ilə görüşü olub. Məlumata görə, səfirin müxalifət təmsilçiləri ilə görüşləri davam edəcək.

Bəs ABŞ səfirinin görüşləri dağılmış, başı daxili didişmələrə qarışan müxalifət düşərgəsinin dirçəlməsinə səbəb ola bilərmi? Bu görüşlər Amerikanın zəifləmiş müxalifətin get-gedə güclənməsində maraqlı olmasının əlaməti sayılmalıdırmı?

**REAL Partiyasının İdarə Heyətinin üzvü Natiq Cəfərli "Yeni Müsavat"a bildirdi ki, onların partiyasının təmsilçilərinin hələlik yeni səfirlə görüşü olmayıb. Lakin yeni səfir fəaliyyətə başladıqdan sonra ABŞ səfirliyində bir neçə yeni təyinatlar olub və həmin yeni təyin olunan səfirlik rəsmiləri ilə görüşlər keçirilib:** "Şəxsən mən keçən həftə səfirliyin iqtisadiyyat bölməsinin yeni rəhbəri ilə görüşdüm. Səfirlə hələ ki görüşümüz olmayıb, amma görüş nəzərdə tutulub. Lakin hələ dəqiq vaxtı məlum deyil. Çox güman ki, yaxın zamanda görüşün dəqiq vaxtını bizə bildirəcəklər. Amma yeni təyin olunmuş səfirlik işçilərinin bir çoxu ilə artıq görüşlərimiz olub".



Örl Litzenberqer

**Natiq Cəfərli qeyd etdi ki, Amerikanın əsas marağı Azərbaycanda dayanıqlı bir sistemin formalaşmasıdır. Məqsəd odur ki, dayanıqlı sistem olsun və problemlər yaşanmasın, ölkədə təlatümlər olmasın, önü görülməyən hadisələr baş verməsin. Çünki təlatümlər və önü görülməyən hadisələrin yaşanması ABŞ-ın özü üçün də ciddi problemlər yarada bilər:** "Azərbaycanın da yerləşdiyi coğrafi məkanı nəzərə alsaq, həm Rusiya, həm İranla bağlı Amerikanın problemlərini də nəzərə alsaq, Azərbaycanda önü görülməyən hər hansı hadisələrin olması ehtimalını Amerika sıfıra endirmək istəyir. Yəni məsələyə belə yanaşmaq daha doğru olar. Söhbət müxalifətin dirçəldilib-dirçəldilməməsindən getmir. Müxalifət özü xalq arasında nüfuzunu artırmalı və seçkilər yolu ilə hökumət qurmağa çalışmalıdır. Burada ABŞ-ın edə biləcəyi az şey var. Ona görə də düşünürəm ki, Amerika səfirinin də müxalifətlə görüşlərinin, onları dinləməsinin əsas hədəfi ölkədə önü görülməyən proseslərin baş verib-verməyəcəyinin ehtimallarının hesablanmasına yönəlib. Mən düşünürəm ki, ABŞ və Avropa İttifaqı ölkələri Azərbaycanda hər hansı təlatümlərin, önü görülməyən proseslərin olmasında maraqlı olsunlar. Müxalifətin ayaqda olması, güclü olması, var olması dövlətçilik ənənələrinin sabit qalmasına, yumşaq siyasi proseslərin olmasına gətirib çıxarır. Müxalifəti olmayan və ya çox zəif olan ölkələrdə xaotik proseslərin olması ehtimalı çox yüksəkdir. ABŞda bunu nəzərə alır və təbii ki, Azərbaycanda müxalifətin var olmasını, təsir gücündə olmasını istəyir".

**N.Cəfərli dedi ki, xaotik proseslər baş verən və bu günə qədər də özünə gələ bilməyən ərəb ölkələrinin hamısında müxalifət yox idi. Orada xaotik dağıdıcı proseslərin olmasının əsas səbəbi bu idi:** "Yeni müxalifət institutunun, vətəndaş cəmiyyətinin olması xaotik proseslərin qarşısını ala biləcək əsas elementlərdən biridir. Məncə, Qərb dövlətlərinin də Azərbaycan demokratik qüvvələri ilə təmasları məhz bu yöndədir. Müxalifətin var olmasını istəyirlər".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**



# Müxalifətin 2020 planı

**2020-ci ilin noyabrında Azərbaycanda növbəti parlament seçkilərinin keçiriləcəyi gözlənilir. Bəs partiyaların parlament seçkiləri ilə bağlı bir planları varmı?**

Modern.az bununla bağlı partiyalar arasında sorğu keçirib.

Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı qeyd edib ki, təmsil olunduğu təşkilat daim seçkiyə hazırlaşır. Bununla belə, bildirib ki, seçkilərdə iştirak etməkləri barədə hələ qərar verilməyib. "Çünki seçki keçiriləcəyi vaxt elan olunmayıb".

**REAL Partiyasının icra katibi Natiq Cəfərli isə bildirib ki, seçkilərə blok şəklində getmək müzakirə mövzusu deyil:** "Çünki seçkilərə qədər yaranacaq siyasi konyukturadan da çox şey asılı olacaq. Amma bütün siyasi partiyalarla funksional əməkdaşlıqla bağlı problem yoxdur. Yəni dairələrin seçilməsi, seçkilər zamanı bir-birinə maneçilik yaradılmaması məsələləri önəmli məsələlərdir".

N.Cəfərli söyləyib ki, bunlar vaxtı çatanda müzakirə olunacaq: "Lakin hazırda seçkilərlə bağlı çox ciddi iş gedir. Biz artıq dairələrin, namizədlərin müəyyənləşdirilməsi ilə bağlı işləri tamamlamaq üzrəyik".

**Azərbaycan Milli İstiqlal Partiyasının Siyasi Şurasının (AMİP) üzvü Əli Orucov bildirib ki, AMİP bütün seçkilərə daim hazır vəziyyətdədir:** "Seçkilərdə blok və ya tək iştirakımızla bağlı hələ qərar verilməyib. Bu, seçkilər zamanı gedən vəziyyətə uyğun olaraq baş verəcək. Hələ parlament seçkilərinə 1 ildən çox vaxt var. Amma AMİP seçkilərə hazırlığı davam etdirir".

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

**Hüseyn Abdullayev növbəti dəfə hakim qarşısına çıxarılıb. Bakı Hərbi Məhkəməsində sabiq deputat Hüseyn Abdullayev, onun anası Zeynəb Abdullayeva, Həbib İbrahimov, Xalid Əliyev, Namiq Babayev, İntiqam Süleymanov, Pərviz Kazımov, Zaur Quliyev və Nazim Əliyevin cinayət işi üzrə məhkəmə iclası keçirilib. Məhkəməyə hakim Həbib Həsənov sədrlik edib.**




# Xalq artisti Hüseyn Abdullayevin məhkəməsində dindirildi - 4 milyonluq obyekt

## Gülyaz Məmmədova deyib ki, onun adına rəsmiləşən obyektin harada yerləşdiyini bilmir

Məhkəmədə şahid kimi müğənni, xalq artisti Gülyaz Məmmədova dindirilib. Əvvəlki məhkəmə prosesində deputat Cavanşir Feyziyevin “Quska”dan aldığı obyektin 1/3 hissəsini Gülyaz Məmmədovanın adına keçirdiyi məlum olmuşdu. Buna görə də Gülyaz Məmmədova şahid kimi dindirilib. Məmmədova Cavanşir Feyziyevi tanıdığını, onun istəyi ilə obyektin adına keçirildiyini deyib. Gülyaz Məmmədova suala cavabında obyektin yerini bilmədiyini söyləyib.

Bu epizodda Zeynəb Abdullayeva izahat verib. O bildirib ki, həmin obyekt 4 milyona satıldığı halda jurnalistlər həmin məbləği 10 milyon kimi qeyd ediblər. (Həmin yazı musavat.com saytında da dərc edilib. Belə ki, yazıda həmin obyektin deputata 10 milyona satıldığı yox, indiki bazar qiymətinin 10 milyondan artıq olduğu qeyd edilib. Obyektin ümumi sahəsi 800 kvadratmetrə yaxındır. Üzeyir Hacıbəyov küçəsində, Hökumət Evinin arxasında yerləşir - müəllif).

**Məhkəmədə Zeynəb Abdullayevanın qardaşının oğlu Elnur Bayraməliyev də ifadə verib. O bildirib ki, Zeynəb Abdullayeva Naxçıvanda olan evini ona hədiyyə edib:**



“Mən də sonra şəxsi problemlərimə görə evi satdım. Məndən, sadəcə, həmin ev haqqında soruşublar”.

Vəkil Vasif Mirzəyev məhkəməyə xatırladıb ki, şahidin ifadəsindən məlum olur ki, o, Abdullayevlərə məxsus 60-a yaxın mülkün adını, dəqiq ünvanlarına qədər sayıb.

**Elnur Bayraməliyev belə bir ifadə vermədiyini deyib:** “Mən Bakıda 1 il qalmamışam. Küçə adlarını bilmirəm, necə deyə bilərəm?”

Hüseyn Abdullayev də şahidin belə bir ifadə verməsini mümkünsüz hesab edib.

**Bu epizodda da Zeynəb Abdullayeva məhkəmədən söz istəyib:** “Bunlar oturub mənə gələn pulu sayıblar. Mən 7 yetim saxlamışam, toy eləmişəm, ev almışam. Mənə gələn pullar həmişə xeyriyyə işinə xərclənib. Allah da, ətrafda olan qohumlar da bunu bilir. Mən ətrafımda olanlardan kimə kömək etməmişəm ki? Bir bunu da araşdırardılar”.

Salman Səfərov da məhkəmədə şahid kimi ifadə verib. Ondan “Kənan S” şirkəti haqda suallar soruşulub. Bildirək ki, ittihamda bu şirkət epizodu üzrə rəhbəri olduğu üçün Hüseyn Abdullayevə 1802 manat vergidən yayınma ittihamı verilib.

**Salman Səfərov isə şirkətin təsisçisinin özü olduğunu deyib:** “Niyyətimiz yaxşı idi. Zeytun satışı edəcəkdim. Hüseyn Abdullayev də dost kimi yardım edəcəkdi. Amma iş alınmadı. Şirkət mənim oğlum Kənanın adınadır. Sdə soyadımızdır”.

**Məhkəmə prosesinin davamında Azadə Cəfərova ifadə verib. Mühasib olduğunu deyən Azadə Cəfərova uzun illər Hüseyn Abdullayevlə birlikdə çalışdığını bildirib:** “Mən ali təhsilli mühasibəm. 70 yaşım var və mən bu gün də dolana bilmirəm. Təsəvvür edin ki, 50-60 yaşımda ailəmi dolandırmaq üçün 10 işin arxasınca qaçırdım. Həyat özü məni mühasib elədi. Sonra Hüseyn müəllim məni yanına çağırdı, iş verdi. Normal maaş almağa başladım. Mühasib kimi bütün işləri görürdüm. Hüseyn müəllim deputat seçiləndən sonra onu çox az görməyə başladıq. İşləri Hüseyn müəllimin anası Zeynəb xanım idarə etməyə başladı. Bundan sonra bircə iş görüldü. Nəriman Nərimanovun heykəlinin yanında bina inşa edildi”.

**Suallara cavabında Azadə Cəfərova binanın satışından əldə edilən gəlirdən dövlətə vergi ödənilməməsi ittihamını belə izah edib:** “Biz digər şirkətlərdən fərqli olaraq bina hazır olmadan ev satmadıq. 2008-ci ildə bina tam olaraq təhvil verildi və satışa başladıq. O zaman indiki kimi deyildi ki, gəlirə görə vergi ödəyəsən. Həmin ərəfədə Vergilər Nazirliyi mənzilin hər kvadratmetrinə görə vergi alırdı. Bu, bütün ölkədə belə idi. Müştəri gəlirdi, pulu banka ödəyirdi, biz də qəbz verirdik. Bütün bunlara da Zeynəb xanım nəzarət edirdi”.

**Prokuror xatırladıb ki, şahid satışa Hüseyn Abdullayevin nəzarət etdiyini deyib. Şahid isə buna etiraz edib:** “Mümkün deyil ki, belə söz deyim. Mən Zeynəb xanımla işləyirdim və pullara o nəzarət edirdi”.

**Azadə Cəfərova deyib ki, bu ittiham 2013-cü ildən sonra ortaya çıxıb:** “Hər şey "Susma" mahnısı ilə başladı. Bu 1.8 milyonluq ittiham veriləndə Zeynəb xanım da ödədi".

Xatırladaq ki, hazırlıq iclasında Dövlət Sərhəd Xidmətinin sabiq əməkdaşları, iş üzrə təqsirləndirilən Həbib İbrahimov, Zaur Quliyev və Pərviz Kazımovun vəkilləri çıxış edib. Vəkillər vəsatət qaldıraraq, onların barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsini istəyib. Həmin şəxslər H.Abdullayevin anasına sərhədi keçərkən kömək etməkdə ittiham edilirlər. Vəsatətlər təmin olunub və hər üç şəxs ev dustaqlığına buraxılıb.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

# Qaşıqçı cinayətində daha bir sirr- MİT-in həbs etdiyi ərəb intihar edib, yoxsa...

## Fələstinli BƏƏ vətəndaşı Zəki Mübarəkin ölüm işi beynəlxalq qalmaqala çevrilə bilər




**İstanbulda Silivri həbsxanasında intihar edən BƏƏ vətəndaşı ilə bağlı qalmaqal böyüyür. Fələstin əsilli BƏƏ vətəndaşı Zəki Mübarəkin qardaşı Zeynal Mübarək qardaşının Türkiyədə qətlə yetirildiyini iddia edib. “Sputnik”in xəbərinə görə, Səudiyyə Ərəbistanı mediasına müsahibəsində Zeynal Mübarək qardaşının ölməmişdən əvvəl onunla danışdığını və günahsız olduğunu, bütün ittihamları rədd etdiyini bildirib.**

Xatırladaq ki, iki BƏƏ vətəndaşı aprelin 19-da İstanbulda Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) tərəfindən saxlanılıb. Onlara qarşı “Beynəlxalq casusluq”, “Dövlətin gizli məlumatlarının siyasi və ya hərbi casusluq məqsədilə ələ keçirmək” ittihamı irəli sürülüb və İstanbul İkinci Sülh Cəza Məhkəməsi tərəfindən 19 apreldə barələrində həbs-qətimkan tədbiri seçilib.

İlk günlərdə Türkiyə mediası BƏƏ vətəndaşlarının Səudiyyə Ərəbistanı vətəndaşı olan jurnalist Camal Qaşıqçının ölümü işi ilə bağlılığını araşdırdığı haqda məlumat yayıb. İddialara əsasən, BƏƏ-dən olan casuslar Qaşıqçı işi ilə bağlı məlumat toplamaq üçün Türkiyəyə göndərilib.

Ancaq saxlanılanlardan birinin həbsxanada intihar etməsi hadisənin məğzini dəyişib. İndi ərəb mediası Türkiyəni ittiham edir. Ölən şəxsin qardaşı deyib ki, qardaşı həbs olunmasını bir hesablaşma hesab edib. Mübarək deyib ki, qardaşının həbsxanada öldürülməsini təsdiq edən vəkilin vatsap şəbəkəsindən göndərilmiş səs yazısı var.

İstanbulda intihar edən Zəki Mübarəkin oğlu Həsən isə yerli mətbuata bildirib ki, atası iş axtarmaq üçün Türkiyəyə gedib. Sitat: **“Atam dolanışıq və bizə gələcək qurmaq üçün Türkiyəyə getmişdi. Həbs olunmasına çox təəccübləndik. Ancaq daha sonra casus ittihamını eşidəndə şok olduq”.**

Məsələ ondadır ki, Türkiyə və BƏƏ arasında münasibətlər çox pisdir. Xüsusən də son bir neçə ildə iki ölkə hökumətləri arasında gərginlik qarşılıqlı ittihamlara qədər gedib çıxıb. Misirdə hərbi çevriliş, daha sonra Qətər ətrafında böhran Ankara və Əbu-Dabi münasibətlərinə kölgə salıb. BƏƏ hökuməti hazırda Yaxın Şərqdə Səudiyyə Ərəbistanı ilə ciddi əməkdaşlıq əlaqələrinə sahib ölkədir, iki dövlət regional və beynəlxalq mövzularda birgə hərəkət edir. Türkiyə həbsxanasında BƏƏ vətəndaşının, özü də casusluqda ittiham olunan birinin intihar etməsi Ankara üçün də ciddi problem yaradır.

Daha əvvəl Səudiyyə Ərəbistanı prokurorları Qaşıqçı cinayətinin törədilməsi ilə bağlı əmrin Kahtani tərəfindən verildiyi, icrasına isə Milli Kəşfiyyat Xidmətinin rəis müavini, general Əhməd əl-Asirinin birbaşa rəhbərlik etdiyini bildirmişdilər. Ancaq Kahtanidən fərqli olaraq Asiri məhkəmə prosesinə qatılıb.

İndi Türkiyə istintaqı həm BƏƏ casusunun intiharı, həm də onların İstanbula göndərilməsi səbəbini araşdırıb ortaya çıxarmalıdır. Əks təqdirdə, qalmaqal daha da böyüyəcək, onsuz da münasibətlər pisdir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

**Bu ilin aprelində Elmar Məmmədyarovun Azərbaycanın xarici işlər naziri postuna təyinatının 15 ili tam oldu. Özündən əvvəlki 5 XİN rəhbərinin toplamda vəzifədə olduqlarından daha çox nazir işləyən E.Məmmədyarovun fəaliyyətinə fərqli münasibətlər var.**



# Elmar Məmmədyarovun 15 ili - iki rəy





## **Fərəc Quliyev:** "XİN-in fəaliyyətindən razı deyiləm"
## **Qabil Hüseynli:** "Onun professionallığı, fəaliyyəti ilə bağlı nöqsan və tənqid söyləməkdə çətinlik çəkirəm"

Öncəliklə Məmmədyarovdan əvvəlki 5 naziri oxuculara təqdim edirik.

İlk xarici işlər nazirimiz Hüseynağa Sadıqov olub. O, 1991-ci il oktyabrın 18-dən növbəti il mayın 29-na qədər bu postda olub. Onu hazırda İsveçdə mühacir həyatı yaşayan Tofiq Qasımov əvəzləyib. O, 1993-cü il 26 iyunda bu vəzifə ilə vidalaşıb. Onun yerinə Həsən Həsənov gəlib. O da 5 il nazir işləyib. H.Həsənovun xələfi Tofiq Zülfüqarovdur. O, 1999-cu ilin oktyabrına qədər bu vəzifədə təmsil olunub. Onu isə Vilayət Quliyev əvəz edib.

Heç şübhəsiz ki, bu nazirlər içərisində əsas diqqət E.Məmmədyarov üzərində cəmlənir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev XİN-in fəaliyyətindən razı deyil:** "Xarici işlər nazirlərinin manevr imkanları, bacarıqları, jestləri siyasətdə çox mühümdür. Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Xarici İşlər Nazirliyinin uğurundan danışmaq düzgün olmazdı. Hər halda, son illərdə, xüsusilə 2016-cı ilin aprel savaşından sonra Azərbaycan siyasətində fərqli davranışlar müşahidə olunmağa başlandı, ermənilər masada sıxışdırıldı. Müharibə aparan, yaxud müharibə vəziyyətində olan ölkədə hərbi siyasətlə xarici siyasət əslində paralel aparılmalıdır. Bunlar bir-birini tamamlamalıdır. Elmar Məmmədyarovla bağlı, açığı, yadımda yaxşı mənada qalan nəsə yoxdur. Sadəcə, son vaxtlar verdiyi bir bəyanat ki, "siz mənimlə danışmasanız, o zaman Zakir Həsənovla danışmalı olacaqsınız", bu, müsbət bəyanat idi. XİN bir az dişsiz siyasət yürüdür. Dişli siyasət yürütmək lazımdır. Ermənilər BMT saytında Dağlıq Qarabağ məsələsi ilə bağlı məlumat yerləşdirmişdilər. XİN izah verməyə, bəraət almağa çalışdı ki, bunun çox ciddi əhəmiyyəti yoxdur. Amma hər halda, məlumat o sayta yerləşdirilmişdi. BMT ilə əlaqələr yaxşı qurulmayıb. Dəfələrlə təklif etmişəm ki, danışıqları BMT ilə aparmaq lazımdır. BMT 4 qətnamə qəbul edib və hamı elə düşünür ki, orada hər kəsin diqqəti Azərbaycandadır. Qətnamə qəbul etməklə iş bitmiş sayılmır. BMT-də minlərlə otaq, on minlərlə işçi var. Bəlkə heç o sənədin tozunu silən də yoxdur. Məsələni qaldırıb, gündəmdə saxlamaq lazımdır. Bu işlə məşğul olan şəxsləri ölkəmizə gətirmək vacibdir. Mütəmadi olaraq BMT, Avropa Birliyi kimi beynəlxalq qurumların poçtlarını elektron məktublarla bombalamaq lazımdır. Bir də görürsən ki, 3-4 nəfər Avropa Parlamentində Azərbaycanla bağlı qərar qəbul edir. Biz isə dərhal əndişə keçirməyə başlayırıq. Bu məsələlərdə çox kasad bir davranış vardır. Ermənilər hakimiyyət dəyişən kimi yeni bir modellə çıxış etməyə başlayırlar. Hər şeyə sıfırdan start verirlər. Biz hər zaman şahmat termini ilə desək, qaralarla oynayırıq. Artıq ağlarla oynamaq zamanıdır. Ermənilər muxtariyyətdən danışanda biz Qərbi Azərbaycandan qovulan insanlarımızın statusları haqqında danışmalıyıq. Biz 1918-ci ilə İrəvanın verildiyi şərtləri gündəmə gətirməliyik. Şərtlərdən biri o idi ki, Azərbaycan türklərinə qarşı burada sıxışdırma olarsa, müqavilə qüvvədən düşmüş sayılacaq. Biz ən çox bu məsələnin üzərinə getməliyik. Bu və ya digər məsələlər XİN-in üzərinə düşən məsələlərdir. Açığı, XİN-in fəaliyyətindən razı deyiləm. Hesab edirəm ki, ölkədə xarici siyasətimizin irəliləyişi birbaşa prezidentin şəxsi fəaliyyətinə bağlı olan məsələ olub. Prezident koordinatordur, yönəldir. Zəhmət çəkib, hər struktur öz işini görməlidir. Ona görə də sadaladığım və xeyli sayda sadalamadığım məsələlər ərsəyə gəlməyincə, ortaya çıxmayınca, bu və ya digər nazirliklərdən razılıq edə bilmərəm".

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli indiyə qədər nazir olan iki şəxsə üstünlük verir:** "Mən vəzifədə olarkən sona qədər Həsən Həsənovla birgə çalışmışam. O, mənim xatirimdə xarici işlər naziri kimi mükəmməl, intellektual, çox böyük iş enerjisi olan bir şəxs kimi qalıb. Rəhmətlik Heydər Əliyevlə onun tandemi çox gözəl alınırdı. Xarici səfərlərdə də bir yerdə olmuşuq. O səfərlər zamanı danışıqlar prosesində Həsən Həsənovun xeyli fəal olduğunun şahidi olmuşam. Elmar Məmmədyarova gəlincə, o, cənab prezident İlham Əliyevlə birlikdə Moskva Beynəlxalq Münasibətlər İnstitutunu qurtarıb. Onunla bir yerdə çalışmamışam. Sadəcə, müşahidə etmişəm. İş professionallığı baxımından müəyyən üstün keyfiyyətlərə malikdir ki, onu XİN rəhbəri təyin ediblər. Onun ən çox bir qüsuru var ki, Azərbaycan dilində çox bərbad danışır. Üstəlik, nazir olduğu son 15 ildə dilimizi tam şəkildə öyrənə bilmədi. Amma hər halda, onun professionallığı, fəaliyyəti ilə bağlı nöqsan və tənqid söyləməkdə çətinlik çəkirəm. Sözsüz ki, Həsən Həsənovla müqayisədə bu şəxsə daha çox üstünlük verirəm. Elmar Məmmədyarovun əvəzlədiyi Vilayət Quliyevi filoloq kimi tanıyıram. Xarici siyasət məsələlərində onun kifayət qədər yetkin bir şəxs olduğu qənaətində deyiləm. Xarici siyasət məsələlərinə rəhbərlikdə ciddi bir uğur qazana bilmədi. Amma Tofiq Zülfüqarov daha peşəkar diplomat hesab oluna bilər. Çox yüksək intellektual səviyyəsi var, prosesləri çox gözəl bilir. Zənnimcə, nazir işlərkən bu sahədə çox təcrübəli və kifayət qədər zəngin iş təcrübəsinə malik olan insan təsiri bağışladı. Ona görə də Azərbaycanın XİN rəhbərləri içərisində ən yaddaqalan Həsən Həsənov və Tofiq Zülfüqarovdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Tələbələr Solomonun həyatını öyrənsələr...

**Xalid KAZIMLI**



**Sosial şəbəkə platformasında hansısa ictimai-siyasi məsələnin müzakirəsi təsadüfən olmur. Əgər birdən-birə minlərlə, hətta on minlərlə adam bir məsələyə dair status və şərh yazırsa, mövqe bildirirsə, deməli, bu onları ciddi şəkildə narahat edən məsələdir.**

Demək olar ki, hər gün, günaşırı hansısa məsələ ictimai müzakirələrin predmeti olur. Bəzən bir məsələ 3-4 gün ard-arda polemika mövzusu olaraq qalır. Bu, həmin məsələnin ictimai-siyasi yükündən, insanlara təsiretmə miqyasından asılıdır.

Övladlarla, təhsillə, səhiyyə ilə bağlı məsələlər həmişə daha çox adamı narahat etdiyindən, bu xüsusda olan müzakirələr də uzun çəkir, mübahisələr də şiddətli olur.

Məktəblərdə din tədrisi məsələsi bu qəbildəndir.

Dünən Facebookun Azərbaycan seqmetində şərh yazan hər 10 nəfərdən 8-nin qeydləri, 10 bu qədərinin isə şərhləri bu mövzudaydı.

Bəlkə də başqa platformalarda bu mövzuya münasibət başqa cürdür, amma sosial şəbəkədə fəal olanların əksəriyyəti məktəblərdə din dərslərinin tədris olunmasına qarşıdır.

Onların sadə arqumentləri var: "Şagirdlərin dərs yükü onsuz da çoxdur"; "Din elm deyil"; "Sekulyar dövlətdə dini təhsil yalnız xüsusi ilahiyyat məktəblərində olur" və sair və ilaxır.

İllərdir ki, bu təşəbbüslə ölkənin dini quurmları çıxış edirlər. Nüfuzlu din xadimləri də hesab edirlər ki, məktəblərdə xüsusi din dərsinin olması faydalı ola bilər. Təbii ki, onlar "din dərsi" deyərkən uşaqlara İslam təriqətlərindən birinin tədris edilməsini nəzərdə tuturlar.

Ancaq ölkədə başqa dini konfessiyalar və təriqətlər də var və onlar da təbii ki, öz dini baxışlarının, fəlsəfələrinin tədris olunmasını istəyə bilərlər.

Bu halda şübhəsiz ki, tədrisdə xaos əmələ gələr.

Bununla belə, şagirdlərə, eləcə də tələbələrə din tarixi tədris olunması, prinsipcə, mümkündür. Dinlərin tarixini qədim dünya tarixindən ayıraraq tədris etməyin faydası ola bilər, amma bu halda da ortaya çıxacaq ki, şagirdlərə mifologiya fənni tədris olunur.

Ona görə ki, dinlərin tarixi mütləq gedib əsatirlərə, miflərə, 3-5 min il əvvəlin yarımifik-yarıgerçək hadisələrinə dayanır.

Müasir şagirdlər və tələbələr qədim peyğəmbərlərin, məsələn, Davud, Avraam, Solomon və başqalarının həyat və fəaliyyətini öyrənəndə hansı bilikləri əxz edəcəklər?

Birincisi bu, qədim Şərq tarixi demək olacaq. İkincisi, təkcə Yerusəlim şəhərini idarə edən peyğəmbər-hökmdarların tarixinə dair kitab 1200 səhifədən artıqdır. Bunu hansı uşaq oxuyub yadda saxlaya bilər?

Hələ bunun daha zəngin xristianlıq, buddistlik tarixi var. İslam tarixi də mübarizələrlə, ixtilaflarla zəngin olduğundan təxminən 10 il boyunca öyrənilməsi qaçılmaz olan tarixdir.

Həm də din tarixinə aid elə mövzular var ki, müasir terminlə desək, 18+ çərçivəsindədir və bunu azyaşlı şagirdlərə tədris eləmək olmaz.

Məsələn, məşhur peyğəmbərlərdən sayılan Davudun (o, əvvəlcə qoçaq döyüşçü olub, savaşlardan birində Qolyat adlı nəhəng və məğlubedilməz düşmən döyüşçüsünü öldürüb, şöhrətlənib, padşah qızını ona verib, sərkərdə edib və axırda Davud dövlətin başına keçib, peyğəmbər olub) öz sarayının damında dincələn vaxt yuyunan gözəl qadını görməsi, onu yanına çağıraraq zorlaması, ərinin əlindən alaraq zorla özünə arvad etməsi, daha sonra qadının ərinin başını əkməsi nə dərəcədə ibrətamiz və nümunəvi hərəkətdir ki, hələ bunu şagirdlərə də öyrədək?

Yaxud tarixdə "quş dili bilən Süleyman" kimi qalan peyğəmbər-hökmdar Solomonun hərəmxanasında 700 arvadının, 300 kənizinin olması barədə məlumat şagird və tələbələrdə hansı təəssüratı doğuracaq?

Tələbə və şagirdlər belə bilgiləri həyatlarının sonrakı dönəmlərində də öyrənə bilərlər - əgər bu xüsusda bilgili olmağa ehtiyacları olsa.

Ümumiyyətlə götürdükdə isə hazırda dünyanın ən inkişaf etmiş, maddi rifaha qovuşmuş ölkələrində şagirdlərə miflər, əsatirlər tədris edilmir. Heç onlar ixtilaf və müharibələrlə dolu tarix dərslərinə də bir elə önəm vermirlər, daha çox riyaziyyat, kimya, biologiya, fizika, coğrafiya kimi elmlər öyrənir, bu elmlərin dərinliklərinə enir, incəliklərinə varır, ortaya bəşər əhlinin həyatını yüngülləşdirəcək, artmaqda olan insanları yedirib-içirəcək, geydirəcək ixtiralar qoyurlar.

Biz isə hələ də Avraam peyğəmbərin Allah tərəfindən sınağa çəkilməsi hadisəsini öyrənməyə, onun fəlsəfəsini dərk etməyə çalışırıq.



# Din dərsləri

Zamin HACI
zaminhaci@gmail.com

"Uçitel (Həsənquluya). Get bucağa.
Həsənqulu çıxıb gedir durur bucaqda, üzü divara, kişilər təəccüb ilə ona baxırlar.
Qasım kişi (uçitelə). Ay uçitel, bu uşağı niyə üzü qibləyə qoydun?"

***(Mirzə Cəlil, "Danabaş kəndinin məktəbi")***

Düşünürəm ki, Dini İşlər Komitəsi ilə Təhsil Nazirliyinin əlbir olub orta məktəblərdə uşaqlara dini dərslər keçməyə qərar verməsi əslində düzgün addımdır, lakin gecikmiş hərəkətdir. Öncə nəyə görə düzgündür, onu izah edim.

Din, qısaca desək, fövqəltəbii qüvvələrə, gözəgörünməzə inamdır, hər hansı təcrübə, elmi yolla dini rəvayətləri isbat eləmək mümkün deyildir. Azərbaycanda həyat da belə mistika üzərində qurulduğu üçün, dini bilmək vacibdir. Misal üçün, bizdə deyirlər iqtisadiyyat inkişaf edir. Bəs biz bunu həyatımızda görürükmü? Görmürük. Bilirik ki, haradasa Bakının mərkəz tərəflərində aeroport yolu ilə davam edən nəsə bir cənnət diyar vardır. Orda hurilər oynaşır, qılmanlar qaynaşır, canım sənə desin, kürü çayları, süd bulaqları, heroin dağları, alov qüllələri var. Hətta ərəb turistlər putyovka alıb gəlib orda hurilərin qucağında ölməyi tərcih edirlər, nəyə görə? Nöşün ki, cənnətimizin sorağı bütün müsəlman aləminə yayılıbdır.

Eyni zamanda bəzi mənbələr camaatın çoxunun günahlarına görə cəhənnəm əzabı çəkdiyini, idarələrdə süründüyünü, işgəncə alətlərinə tuş olduğunu bildirir. O cümlədən qaçqınlar, köçkünlər, küskünlər, miskinlər, pisgünlər, qəmginlər, dalğınlar, yorğunlar və sairə camaat da yaşayırmış. Lakin biz bu cəhənnəm qəzəbini yaşayanlardan da müəyyən qədər uzaqdayıq. Haradasa ortada, cəhənnəmlə cənnətin arasında bir yerdə qalmışıq. O üzdən, dini öyrənmək vacibdir. Din bizim üçün bir növ təlimat kitabı rolunu oynayır. Yas yerində mollalıq kimi çıxmasın, yol hərəkəti qaydaları ondan ötrüdür ki, avariya eləməyəsən, mənzil başına salamat çatasan.

Gecikmiş hərəkətdir, ona görə ki, biz onsuz uşaqlara dini tədris edirik. Elə həmin qərarın açıqlandığı gün 4-cü sinifdə oxuyan uşaq gördüm sevimli "Azərbaycan dili" dərsliyindən mətn əzbərləyir, orada isə Həzrət Əli və nökərinin yol getməsindən danışılır. Rəvayət, lətifə o qədər absurd idi ki, şəxsən mən anlamadım uşaqlara bunun hansı xeyri var, nə məqsədlə kitaba soxublar. Qısa məzmunu yazım, özünüz də fikirləşin: deyir bir gün Həzrət Əli xurma dolu xurcun, dəvə və nökəriylə gedirmiş. Yolda dilənçi xurma istəyir, Həzrət Əli deyir xurcunun hamısını ver. Nökər verir. Bir az gedirlər, başqa dilənçi dəvəni istəyir, Həzrət deyir ipi ilə birgə ver. Nökər əməl edir, daha sonra isə deyir ki, ya Əli, qorxdum deyəm ip əlimdədir. Vəssalam. Yəni nökər az qala özünün də əldən gedəcəyinə işarə vurur. Çox gülməli idi.

Başqa kitablar, dərsliklər də onun kimi. Mən "Fizika" fənnindən abituriyentlər üçün vəsait görmüşdüm, hər fəsil imamlardan sitatla açılırdı. Təxminən belə: "Optika bölümü. İmam Museyi-Kazım demişdir ki..."

Həmçinin əgər sinifdəki 25 uşaqdan 7-si Məhəmməd, 4-ü Əli, 5-i Hüseyn, 9-u Zəhra, 8-i Yusif, 10 nəfəri Mədinə, 6 nəfəri Məryəm adını daşıyırsa, sən kimsən bu uşaqlara din dərsi keçirsən? Onlar özləri istəsə sənə dini başa salarlar. Gecdir artıq. Hərçənd inkişaf eləmiş müəllimlərimiz də çoxdur. Bir tarix müəllimi haqda danışıblar, adam Babək üsyanından danışanda "lənətullah Babək" deyirmiş, ərəblərin uduzmasını nəql eləyəndən sonra "Allah günahımdan keçsin" söyləyirmiş. Gör nə qədər mənəviyyatlı müəllimlərimiz vardır. Bizim evin yanında bir məktəb var, hərdən səhərlər görürəm müəllimlər avtobus tutub Beşbarmaq pirinə, Beyləqandakı Cərcis peyğəmbərin zəncirinə yaylıq atmağa, nə bilim, Nardaran pirində qəbir daşını ovub yeməyə gedirlər. Gözəl insanlardır. Qayıdanda avtobusdan düşəndə başqa müəllimələr, direktor, şagirdlər gəlir, onlara "Allah nəzirlərinizi qəbul eləsin" deyirlər.

Bizə də yalnız xeyir-dua vermək qalır. Sonda Təhsil Nazirliyi güman edirəm din dərsinin qiymətləndirilməsində də fərqli meyarlardan, ölçülərdən yararlanar. Misal üçün, falaqqa, qırmanc, şallaq, lap pis oxuyan uşağın gözünü çıxartmaq və sairə. Əla olardı. Bunun riyaziyyat, biologiya-zad kimi mənasız fənnlərdən bir fərqi olmalı deyilmi? Yoxsa baxırsan bəzi uşaq lap vələdüzna kimi aparır özünü...

---



# Ordumuzun arsenalına yeni dağıdıcı silah gəlir - Türkiyə-Azərbaycan alyansı güclənir

Müdafiə Sənayesi Nazirliyi Türkiyənin ASELSAN şirkəti ilə birgə "QFAB-250" lazer bombalarının sınaq versiyasını hazırladı; bu gün isə qardaş ölkə ilə növbəti birgə hərbi təlimlər başlayır; **erməni KİV-i:** "Bu təlimlərin əsas hədəfi odur ki..."

**30 ildir erməni işğalı ilə üzləşən Azərbaycan danışıqlar prosesi nəticə vermədiyindən, özünün hərbi qüdrətini artırmaqda davam edir. Bundan ötrü həm Ermənistandan üstün olan maliyyə imkanları hesabına yeni müasir silahlar və döyüş sistemləri alır, həm yerli sənaye kompleksini inkişaf etdirir, həm də dost-müttəfiq ölkələrlə vaxtaşırı keçirilən birgə hərbi təlimlərlə silahlı qüvvələrin döyüş bacarığını artırır və təkmilləşdirir.**

Bu ölkələr sırasında qardaş Türkiyə öncül yerdə qərar tutur. O Türkiyə ki, nüfuzlu beynəlxalq hərbi təhlil mərkəzlərinin etiraf elədiyi kimi, xüsusən də son illər öz hərbi-sənaye kompleksini xeyli modernləşdirib və inkişaf etdirib, silah alan dövlətdən sürətlə silah satan dövlətə çevrilməkdədir. Hesabatlara görə, Türkiyə ötən il hərbi xərcləri ən çox artıran ölkələrdən biridir. O, həmçinin ordusu böyük döyüş təcrübəsinə malik ölkədir.

*****

Daim dinamik yüksəlişdə olan Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı şübhə yox ki, həm də düşmənə və onun havadarlarına, dünyaya Dağlıq Qarabağ məsələsində Azərbaycanın tək olmadığının məsajıdır, siyasi güc nümayişidir.

Yeri gəlmişkən, dünən məlum olub ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutunun (ETİ) Türkiyənin ASELSAN şirkəti ilə birlikdə hazırladığı lazerlə yönləndirilən aviasiya bombasının inert versiyası sınaqlar üçün artıq hazırdır. Bu barədə "Azeri Defence"yə eksklüziv olaraq İstanbuldakı İDEF-2019 sərgisində iştirak edən Müdafiə Sənayesi Nazirliyinin təmsilçiləri məlumat veriblər.

Məlumata görə, bombanın ilk prototipindən 3 ədəd hazırlanıb. Gövdə qismi bir müddət əvvəl ASELSAN tərəfindən yaradılmış Lazer Yönləndirmə Dəsti (LGK- Lazer Güdüm Kiti) ilə uyğunlaşdırılmaq üçün Türkiyəyə göndərilib. LGK üzərində kiçik dəyişikliklər edilməklə Azərbaycan istehsalı olan aviasiya bombasına inteqrasiya olunub.

İnstitutun baş direktoru Novruz Abdullayevin sözlərinə görə, inert versiya sınaq üçün hazırdır və müəyyən edilmiş tarixdə Azərbaycanda sınaqlar həyata keçiriləcək. Daha sonra, sifarişdən asılı olaraq yönləndirmə dəstinin 250 kiloqramlıq qəlpəli-fuqas bombalara inteqrasiyası həyata keçiriləcək.

Onu da bildirək ki, LGK-nın inteqrasiya edildiyi Azərbaycan istehsalı olan "QFAB-250" aviasiya bombaları buraxıldığı hündürlükdən asılı olaraq 12 km-dək məsafədə hədəfləri maksimum 10 metr yanlışla vurmağa imkan verəcək. Bu, NATO standartlarına uyğun yaradılmış LGK yönləndirmə dəstinin sovet standartlarına uyğun aviasiya bombasına ilk inteqrasiyasıdır.

*****

Azərbaycanla NATO üzvü Türkiyə arasında hərbi sahədə əməkdaşlıq başqa istiqamətlərdə də davam edir. Elə bu gün - mayın 1-də iki qardaş ölkə Azərbaycanda "Mustafa Kamal Atatürk-2019" kod adı ilə ortaq hərb təlimlərə başlayır. Rəsmi məlumata görə, mayın 5-dək davam edəcək təlimlərdə əsas hədəf hərbi birləşmələrin qarşılıqlı koordinasiya şəraitində fəaliyyəti, ordunun döyüş qabiliyyətinin artırılması və birgə əməliyyatlar təcrübəsini inkişaf etdirməkdir. Ortaq təlimlərə hər iki tərəfdən tank əleyhinə və havadan müdafiə sistemləri, artilleriya qurğuları, hərbi nəqliyyat vertolyotları, zenit-raket kompleksləri cəlb olunacaq.

Gözlənildiyi kimi, Azərbaycanla Türkiyənin budəfəki ortaq təlimləri də ən çox işğalçı Ermənistanda təlaş yaradıb. **"Böyük bir sirr açmarıq, desək ki, bizim şərq və cənub qonşularımız (Azərbaycan və Türkiyə nəzərdə tutulur - "YM"), hansılar ki, 25 ildən artıqdır ölkəmizi Qarabağ məsələsində güzəştə vadar eləmək üçün blokadada saxlayır, faktiki surətdə təhlükəsizliyimizə potensial təhdiddir. Bu xüsusda Türkiyə-Azərbaycan hərbi-siyasi bloku ilə bağlı istənilən proses erməni media və ekspert dairələrinin diqqətinə layiqdir". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə 1in.am portalının dününki baş məqaləsində bildirilir.**

**Məqalədə daha sonra deyilir:** "Hərb ekspertlər əlbəttə ki, şübhə eləmirlər ki, bu Türkiyə-Azərbaycan təlimlərində ən azı, nəzəri cəhətcə, əsas düşmən qismində məhz Ermənistan nəzərdə tutulacaq. Bütövlükdə iki müttəfiq dövlətin silahlı qüvvələrinin iştirakı ilə belə təlimlər son illər tez-tez Türkiyə və Azərbaycanın strateji, etnik və siyasi yaxınlaşması ilə paralel surətdə həyata keçirilir. Tez-tez də təlimlər Naxçıvanda keçirilir".

Yazının sonunda müəllif Bakı-Ankara hərbi alyansının, Türkiyənin Güney Qafqazda artan fəallığının guya Moskvaya da təhdid olduğunu iddia edir. Bundan ötrü Vladimir Yevseyev tipli erməniپərəst rusiyalı ekspertin fikirlərinə məmnuniyyətlə yer verir.

*****

Ancaq nə Azərbaycan, nə də ələlxüsus qardaş Türkiyə Ermənistana hücum etməyə hazırlaşmır. Bu olmayan təhlükəni qabartmaq yalnız Rusiyadakı müəyyən hərbi-siyasi çevrələrə, hərbi-sənaye kompleksinə sərf edir ki, Ermənistanda və bütövlükdə Güney Qafqazda Rusiya hərbi mövcudluğuna haqq qazandırsınlar. Təəssüf ki, erməni tərəfi on illərdir könüllü şəkildə bu planın tərkib hissəsi olmaqdadır. Halbuki Azərbaycanın qardaş ölkə ilə hərbi və hərbi-texniki əməkdaşlığında yalnız bir hədəf güdülür: ordumuzun döyüş qabiliyyətini və müharibə hazırlığını artırmaq və məqbul geosiyasi şərtlər yetişən kimi ərazi bütövlüyümüzü bərpa eləmək, işğala son qoymaq.

Yəni Azərbaycan Ordusu Ermənistan adlı qondarma dövlətin ərazisinə girib orada Rusiya qüvvələri ilə toqquşmaq niyyətində deyil. Bakıya bu, lazım da deyil. Bizə beynəlxalq hüquq, o sırada BMT TŞ-nin Qarabağa dair məlum qətnamələri əsasında öz sərhədlərimiz daxilində antiterror əməliyyatı keçirib ərazi bütövlüyümüzü bərpa eləmək lazımdır - o da sülh danışıqları nəticə verməzsə.

Bu mənada silahlı qüvvələrimizin arsenalına yeni və daha dağıdıcı silahların daxil olması, habelə Türkiyə ilə ortaq təlimlər, işğalçı tərəfə bir daha aydın mesaj olmalıdır ki, "daşı ətəyindən nə qədər tez töksə", bir o qədər onun üçün yaxşı olacaq. Əks halda, qat-qat genişmiqyaslı aprel "sindrom"larına hazır olmalıdır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

Yeni Müsavat
N 93 (7263) 1 may 2019

# Hacıbala Abutalıbovla keçmiş işçisi arasında şok ittihamlar

## Sabiq merin “koramal” dediyi Mənzil-Kommunal Təsərrüfatı Departamentinin sədr müavini: “Hacıbala Abutalıbov məni təhdid etdiyinə görə tutduğum vəzifədən istefa vermişəm”

**Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı, baş nazirin müavini Hacıbala Abutalıbov mətbuatda onunla bağlı yayılan məlumatlara münasibət bildirib. BŞİH rəhbəri vəzifəsini icra edərkən dövlət əhəmiyyətli binaları öz qohumlarının adına qeyri-qanuni özəlləşdirməsi, sahibkarların mülklərini əlindən alması və icra hakimiyyətinin tikinti işlərini görən fəhlələrin məvacibini verməməsi ilə bağlı bir sıra saytlarda yayılan iddialardan danışan H.Abutalıbov bildirib ki, onun haqqında verilən informasiyalar yalan və iftiradır.**

**Sitat:** “Yalan ayaq tutar, yeriməz. Verilən informasiyalarla dərc olunmuş sənədlər tamamilə bir-birini təkzib edir. Bu informasiyaları ötürən şəxs dövlət əmlakını mənimsəmə və vergidən yayınmaqda təqsirli bilinərək Cinayət Məcəlləsinin 179-cu və 213-cü maddələri ilə məhkum olunmuş Vidadi Əliyevdir. Bu, onun sənədləri saxtalaşdırma yolu ilə mənimsəmə və qanunsuz olaraq tikdiyi obyektlər haqqında məlumatlar aidiyyəti dövlət orqanlarına məlum olduqdan sonra öz gördüyü işləri ört-basdır etməyə çalışması və ona nail olmadıqda əvvəllər - məhkum olunduğu vaxtda istifadə etdiyi böhtan dolu bir şantajdır. Özəlləşdirmə ilə əlaqədar verilən informasiyaların mənə heç bir aidiyyəti yoxdur. Əminəm ki, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi qanunsuz olaraq heç bir obyekti özəlləşdirmir və özəlləşdirə də bilməz. Mən bu günə qədər mənəviyyatımı qoruya bilmişəm. Ümummilli lider Heydər Əliyevimizin yanına getməyə tələsən Hacıbala Abutalıbov bundan sonra mənəviyyatını yüzqat qorumalıdır və qorumağa çalışacaq. Zəhərli ilanın nə qədər günahı varsa da, ona zəhərverən koramalın günahı çox-çox böyükdür”.

**Məsələ ilə bağlı unikal.org-a açıqlama verən sabiq Mənzil-Kommunal Təsərrüfatı Departamentinin sədr müavini Vidadi Əliyev Abutalıbovun onunla bağlı ittihamlarını əsassız sayıb:** “Hacıbala Abutalıbov hesab edir ki, onunla bağlı məlumatları mətbuata mən ötürmüşəm! Cavab olaraq deyirəm ki, bu belə deyil. Hacıbala Abutalıbov haqqımda yanlış düşünür. Onun mənimlə bağlı açıqlaması nə mənəviyyatıma, nə də əqidəmə uyğundur. Çünki mən onu hər zaman rəhbərim kimi, bu gün də respublikada mühüm postların birində işlədiyi üçün şəxsiyyətinə hörmət edirəm. Bütün bunlara baxmayaraq, o,



haqqımda səhv düşünür. Guya mən onun barəsində hansısa "məlumatlar" yaymışam. İmzam olmayan yerdə heç kimin haqqında danışmaram. Lazım olsa, hörmətli Hacıbala Abutalıbovla sivil qaydada, heç bir düşmənçilik olmadan, münasibətlərə xələl gətirmədən danışa bilərik".

**Vidadi Əliyev baş nazirin müavini haqqında məhkumluq ifadəsini işlətməsinə də münasibət bildirib:** “Abutalıbov məni yararsız insan adlandırdığına görə çox təəssüf edirəm. Qeyd edim ki, Abutalıbov müvafiq sərəncamı ilə məni Bakı Şəhər Mənzil Kommunal Təsərrüfat Departamentinin sədr müavini təyin edib. Hətta məni 2017-ci ilin may ayının 25-də 55 yaşım tamam olması münasibətilə Fəxri Fərmanla mükafatlandırıb. İclasda mənimlə bağlı xoş ifadələr səsləndirib. Digər tərəfdən, onu da deyim ki, "Tərəqqi" medalı almağım üçün Hacıbala Abutalıbov müraciət etmişdi. Əgər mən doğrudan da “yararsız” adam idimsə, Hacıbala Abutalıbov bunları niyə edirdi? Yəqin ki, üzərimdə hər hansı məhkumluq olsaydı, məni o vəzifəyə təyin etməz, o adlar, mükafatlar verilməzdi. Məhz Hacıbala Abutalıbov məni təhdid etdiyinə görə tutduğum vəzifədən də istefa vermişəm".

Qeyd edək ki, H.Abutalıbov icra başçısı olarkən tez-tez bu cür iddialar mətbuatda tirajlanıb. Ekspertlər istənilən məmur haqqında bu cür məlumatlar ortaya atılarkən aidiyyəti qurumların araşdırmalar aparıb, açıqlama verməlrinin vacib olduğunu bildirirlər. Lakin hələ də sabiq icra başçısı ilə bağlı bu xəbərlərə münasibət sərgiləyən dövlət qurumu olmayıb.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa məhkəmə yolu ilə bu cür iddiaların doğru olub-olmamasının üzə çıxarılmasını daha doğru sayır:** “Bu məlumatın mətbuata sızmasından daha önəmli məhkəmə predimeti olaraq məsələnin gündəmə gətirilməsi daha doğrudur. Hüquqi variantlara daha çox üz tutmaq lazımdır. Əgər insanların belə bir iddiası varsa, məhkəməyə müraciət edirlər və məhkəmə araşdırması nəticəsində məlum olur ki, həqiqətən də belə bir hal var. Açığı, vəzifədən gedəndən sonra insanlar haqqında yaxşı və ya pis məlumatlar onsuz da intensivləşir. Çox da güman etmirəm ki, bu qədər müddət keçəndən sonra hansısa bir kompensasiya ödənməsin, yaxud hansısa bir addım atılmasın. Ola bilər ki, kimisə məbləğ aşağı olduğu üçün qane etməyib. Təbii ki, kompensasiya elə məsələdir ki, hamını razı salmaya bilər. Bununla bağlı biz də məsələlər qaldırmışıq ki, bu standartlar bir qədər fərqli olmalı, dəyişməlidir. Lakin konstitusiyada da qəbul olundu, sonra qanunlarda da var ki, artıq dövlət yaxud hansısa bir ehtiyac üçün bu təyin olunanda bunu mübahisələndirmək imkanı vətəndaşın çox vaxt xeyrinə olmur. Ola bilər ki, bundan narazılıq olsun. Amma ödənilməmə məsələsi real görünmür. Hər halda, belə bir iddia varsa, bu ancaq məhkəmə predimeti ola bilər. Problem məhkəmədə çözülə bilər. Məmur olanda nə olar ki? Hamı haqqında fikir deyilə bilər. Fikirlərin əsasının olmaması da normaldır. Bəzən haqlı olaraq çoxlu iradlar olur. Kimsə vəzifədən gedəndən sonra üzərinə bu cür ittihamlar yönəlir. Məhkəmə predmeti olsa, belə məsələlərə son qoymaq mümkündür. Vətəndaşın narazılığı varsa, sübutlar əsasında müraciətini etsin. İndiki halda məmurun təsir imkanları əvvəlki kimi deyilsə, o zaman vətəndaşlar nədən çəkinirlər? Məhkəmədə qalib gəlib, həmin vəsaiti ödəməyə məmuru məcbur etmək mümkündür. Konkret olaraq hansı bina özəlləşdirilsə, vətəndaşın bununla bağlı məhkəməyə müraciət etmək hüququ var. Çünki dövlət əmlakının müəyyən dərəcədə vətəndaşa aidiyyəti var. Bu baxımdan vətəndaşın iddia qaldırmaq hüququ mövcuddur. Jurnalist araşdırması ilə də bunu sübut etmək mümkündür. İddia məsələnin müzakirəsi üçün tam əsas vermir. Gərək bu, isbatlı, əsaslandırılmış şəkildə ortaya qoyulsun. Müraciət formasında rəsmi qeydiyyatdan keçən ərizə olduqdan sonra bu kimi məsələlərə münasibət bildirmək olar”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**




# Futbolçu Mahir Mədətov atasının soyadından imtina etdi

## O, instaqram səhifəsində soyadını dəyişdirərək “Əmrəli” qoyub

**Şou-biznesin məşhur cütlüyü prodüser Anar və Elnurə Mədətovlar ayrılıb.**

Axşam.az xəbər verir ki, bir müddətdir ayrı yaşayan cütlük boşanma ərizəsini məhkəməyə təqdim edib. Maraqlı məqam isə odur ki, Anar hələ rəsmi boşanma olmamışdan əvvəl evlənməyə hazırlaşır.

A.Mədətov uzun müddətdir Samirə adlı xanımla sevgilidir. Prodüser vizajist sevgilisi ilə evlənməyə hazırlaşır. Hətta ötən gün onların xına mərasimi də baş tutub.

Valideynlərinin ayrılması onların övladlarını da sarsıdıb. Keçmiş cütlüyün futbolçu oğlu Mahir Mədətov buna görə atası ilə danışmır. O, hətta boşanma məsələsindən sonra atasının soyadından imtina edib, anasının soyadına keçmək istəyir.

Prodüser Anar Mədətov məsələ ilə bağlı “Qafqazinfo”ya açıqlama verib. O deyib ki, şəxsi həyatının gündəmə gətirilməsini istəmir: “Həyatdır, hər şey ola bilər. Heç kəs insanın şəxsi həyatına qarışa bilməz. Düzdür? Sayt məlumatı yayıb, mən də vəkilə müraciət edəcəm. Ailə məsələsidir. Kiminsə övladını ac qoymuşam, kiminsə arvadına sataşmışam, pislik etmişəm? Bu mənim həyatımdır, özüm bilərəm”.

Prodüserin futbolçu oğlu Mahir isə instaqram səhifəsində soyadını dəyişdirərək “Əmrəli” qoyub. O, hətta hesabında ailəsindəki son vəziyyətlə bağlı aforizm paylaşıb: “Bir atanın uşaqlarına edəcəyi ən böyük yaxşılıq onların analarını sevməyidir”.

Bundan əlavə, futbolçu atası ilə fotolarını da instaqram səhifəsindən silib.

Qeyd edək ki, Elnurə Mədətova da əvvəl prodüser kimi fəaliyyət göstərirdi. Hazırda isə o, məşhur mağazalardan birinin rəhbəridir.



# Tanınmış aparıcıya AzTV-də vəzifə verildi

**AzTV-də yeni kadr dəyişikliyi baş tutub. “Qafqazinfo” xəbər verir ki, tanınmış jurnalist Dilarə Səlimova televiziyanın mədəniyyət xəbərləri bölməsinin rəhbəri vəzifəsinə təyin olunub. O, artıq vəzifəsinin icrasına başlayıb. Bundan əvvəl isə sözügedən postda əməkdar artist, Azərbaycan televiziyasının ilk diktor-jurnalisti Gülşən Əkbərova olub.**

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

**"Hər I qrup əlilin yanında, ona xidmət edən, həyatını ona həsr edən bir insan var ki, illərdir təmənnasız çalışırdılar. Onlar əlil şəxsə xidmətdən başqa heç bir iş görə bilmirdilər. Prezident fərmanında I qrup əlillərə xidmət edənlərin də nəzərə alınması, ayrıca təqaüdün təsis olunması və həmin şəxslərə əmək stajının yazılması bu fərmanda nə qədər incə və həssas məqamların nəzərə alındığının göstəricisidir".**



# Prezident İlham Əliyevin sosial islahatlar paketi

## Əhalinin rifahı naminə yeni inqilabi addımlar

**Bu sözləri Vətən Müharibəsi Əlilləri İctimai Birliyinin sədri, I qrup Qarabağ qazisi Firidun Məmmədov** dövlət başçısının sosial islahatlar paketinin mahiyyətini şərh edərkən bildirib. Onun sözlərinə görə, Qarabağ əlillərinin sosial vəziyyətinin yaxşılaşmasında dövlət başçısı İlham Əliyevin apardığı islahatlar xüsusi önəm daşıyır: "Prezidentin imzaladığı sosial islahatlar paketi son illərdə aparılan islahatların ən dolğunu və ən tutarlısı idi. Bu günə qədər bir dəfəyə bu qədər artımın olması müşahidə olunmamışdı. Bu onu göstərdi ki, Ali Baş Komandanımız müharibə əlillərinə xüsusi diqqət ayırır. Artımların əksər hissəsi şəhid ailələrini və qazilərimizi qane etdi. Daha az müavinət alan həqiqi hərbi xidmət çağırışçıları var idi ki, onlarda artım daha çox oldu, aldıqları müavinət 90 manatdan 150 manata qalxdı, prezident təqaüdü də 70 manat artdı. I qrup əlillərdə təxminən 200 manata yaxın artım oldu. Hərbi qulluqçularda və əmək pensiyasına çıxmış Qarabağ müharibəsi əlillərinin aldıqları vəsait qrupundan asılı olaraq artımlar 70 -110-120 manat artmış oldu. Bu Qarabağ əlillərinin həyatında müəyyən maddi sıxıntılar var idi ki, bu sosial artımlar onların həllində müsbət rol oynadı. Müharibə veteranlarının aldığı müavinət prezident təqaüdü şəklində 80 manata qalxdı".


Firidun Məmmədov


Fazil Talıbov


Vüqar Bayramov


Vahid Əhmədov

### "Bu, Azərbaycan təcrübəsində bir ilk idi ..."

**F.Məmmədovun sözlərinə görə, I qrup Qarabağ qazilərinə xidmət edən, həyatını onlara sərf edən insanlar var idi ki, onlar heç bir yerdə işləyə bilmirdilər, maddi gəlirləri yox idi:** "Onlara prezident təqaüdünün ayrılması Azərbaycan təcrübəsində bir ilk idi. Əvvəllər I qrup əlillərə 11 manat xidmət pulu nəzərdə tutulurdu və pensiyanın içində verilirdi, çox adam onun nəyə görə verildiyini bilmirdi. Artıq bu təqaüd 50 manat miqdarında müəyyənləşib. Bu xidməti göstərən insana əmək stajı da yazılacaq və gələcəkdə bunu pensiyaya çıxa biləcək. Bu, təkcə müharibə əlillərinə deyil, I qrup olan bütün əlillərə aiddir. Xidmətçilərə bu cür təqaüdlərin verilməsinə başlanılıdısa, gələcəkdə bu, artan xətlə davam edəcək".

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Fazil Talıbov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Prezident İlham Əliyevin sosial islahatlar paketinin uğurlu nəticələri kimi cari ildə ümumilikdə 3 milyondan artıq insanın sosial rifah halında müsbət dəyişiklik oldu:** "Dövlət başçısı 2019-cu ilin əhalinin sosial müdafiəsi baxımından fərqlənən bir il olacağını bəyan edib. Ölkə əhalisi artıq bunun əməli şəkildə öz təsdiqini tapdığını görür. Bunlardan biri Prezident İlham Əliyevin fevralın 8-də imzaladığı sərəncamla minimum əmək haqqının məbləğinin təxminən 40 faiz artırılaraq 180 manat müəyyən edilməsi oldu və sərəncam 2019-cu il martın 1-dən qüvvəyə mindi. Minimum əmək haqqının artımı 600 minədək insanı əhatə etdi. Dövlət sektorunda işləyən 450 min nəfərin əmək haqqında 30, özəl sektorda işləyən 150 min nəfərin əmək haqqında isə 25 faiz artım oldu. Minimum əmək haqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldilib. Bu mühüm sosial əhəmiyyətli tədbir, eyni zamanda əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsir göstərdi. Bu həm də işçilərin gələcəkdə sosial təminatının güclənməsinə də təsir göstərir, işçinin hesabındakı pensiya kapitalı artır. Bu da onun gələcəkdə işsizlikdə sığorta ödənişinin və pensiya təminatının çox olması baxımından əhəmiyyətlidir. Digər bir addım isə əmək pensiyasının minimum məbləğinin 2019-cu il 1 mart tarixindən 160 manat məbləğində müəyyən olunmasıdır. Bu addımla 233 min nəfərin pensiyasında artıma nail olunub. Bu da həmin şəxslərin sosial rifahını gücləndirib. Nəticədə 9 min nəfərin pensiyasında 93 faiz (75 manat), 26 min nəfərin pensiyasında 30 faiz (37 manat), 74 min nəfərin pensiyasında 16 faiz (27 manat) və s. artım baş verib. Əmək pensiyasının minimum məbləğinin artırılmasından sonra Azərbaycan MDB məkanında pensiyanın məbləğinə görə ilk iki yeri bölüşdürür. Minimum pensiya məbləğinin artırılması üçün illik 49 milyon manat vəsait ayrılıb".

**Nazirlik rəsmisinin sözlərinə görə, dövlət başçısının sosial islahatlar proqramının uğurlarından biri də sosial müavinət və təqaüdlərin artırılması oldu:** "Prezident İlham Əliyevin aprelin 15-də imzaladığı sərəncam və fərmanlar bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılmasını, yeni təqaüd növlərinin təsis olunmasını təmin etdi. Bu qərarlar orta hesabla 600 min nəfər insanı, o cümlədən 300 min nəfər əlilliyi olan şəxsi əhatə edib. Bunun üçün də illik 4 milyon manat vəsait ayrılıb ki, bununla da büdcədən sosial müavinət və təqaüdlərin verilməsi üçün ayrılan vəsait illik iki dəfə artırılıb. Bəzi yeni təqaüd növləri də formalaşıb. I dərəcə əlilliyi olan şəxslərə verilən aylıq müavinətin məbləği 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılıb. Eyni zamanda I qrup əlillərə və əlilliyi olan uşaqlara qulluq edənlərə 50 manat təqaüd ayrılıb. 80 min nəfərə yaxın müharibə veteranına aylıq 80 manat prezident təqaüdü təsis olunub".

**F.Talıbov Azərbaycan prezidentinin ölkənin hər bir vətəndaşının yanında olduğunu da vurğuladı:** "Prezidentin aylıq təqaüdü fərmanın əhatə etdiyi kateqoriyalardan olan I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə - 230 manat, III dərəcə əlilliyi olan şəxslərə - 210 manat müəyyən olunub. I qrup əlilli olan şəxs 150 manat aylıq sosial müavinət, 100 manat prezident təqaüdü alır və ona qulluq edən şəxs də 50 manat təqaüd alır. Yəni ümumilikdə bu məbləğ 300 manata çatır. Müharibə əlillərinə verilən Prezidentin aylıq təqaüdünün məbləği I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə - 230 manat, III dərəcə əlilliyi olan şəxslərə - 210 manat müəyyən olunub. Aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manata, ailə başçısını itirməyə görə 80 manata (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manata (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. Şəhid ailələri üçün Prezident təqaüdü də artırılaraq, 242 manatdan 300 manata çatdırılıb. Həmçinin başqa bir fərmanla şəhid ailələrinə və vərəsələrinə birdəfəlik ödəmələr, 11 min manatın verilməsi həyata keçirilib. Bu fərman 12268 şəhidin vərəsələrinin birdəfəlik ödənişi almaq hüququ müəyyən olunub əhatə edib və ödəniləcək vəsaitin həcmi 135 milyon manat olub. Prezidentin fevralın 26-da imzaladığı sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb, müvafiq olaraq, 33 və 60 manata çatdırılıb. Problemli kreditlərin həlli ilə bağlı prezident fərmanı da əhalinin sosial vəziyyətinin yaxşılaşmasında müsbət rol oynayıb, 800 mindən çox insan bu fərmanda faydalanıb. Bu da Azərbaycan prezidentinin ölkənin hər bir vətəndaşının yanında olduğunu göstərir.

**Önəmli yeniliklərdən biri də avtomatlaşdırılmış pensiya təyinatı sisteminin tətbiqidir:** "İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli fərmanına əsasən, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqi genişləndirilir. Cari ilin əvvəlindən tətbiqinə başlanan avtomatlaşdırılmış pensiya təyinatı sisteminin texniki imkanları artırılmaqla, əlilliyə görə pensiya təyinatlarının da elektron sistem üzərindən həyata keçirilməsinə başlanıb. Yaşa görə pensiya təyinatı kimi, əlilliyə görə pensiya təyinatı da artıq heç bir yerə müraciət olunmadan və sənəd tələb edilmədən elektron qaydada təyin olunur. Mühüm məqamlardan biri də "DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin yaradılması oldu ki, bu layihə əmək, məşğulluq, sosial müdafiə və təminat sahələrində xidmətlərin "bir pəncərə"dən operativlik, şəffaflıq, nəzakətlilik prinsipləri əsasında təqdim edilməsinə imkan verəcək".

### "Daha dərin islahatlara da start verilib..."

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da vurğuladı ki, bu sosial islahatlar paketi çox böyük bir əhatə dairəsinə malikdir:** "Bu islahatlara 2,5 milyard manat vəsait xərclənib. Bu, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün atılan addımlardır. Ölkədə gedən islahatların bir qolu olan sosial islahatlar paketi həyata keçirilir. Cəmiyyətdə də buna çox müsbət münasibət var. İnsanların sosial rifahını yaxşılaşdırmaq üçün atılan addımlar çox müsbətdir. Paralel olaraq digər sahələrdə də müsbət islahatlar həyata keçirilir. Məhkəmə-hüquq sistemində, problemli kreditlər sahəsində aparılan islahatlar da sosial vəziyyətə birbaşa təsir göstərir. İslahatların uğurlu olması üçün bütün sahələrdə, həm iqtisadi, həm də siyasi istiqamətdə aparılması çox vacibdir ki, insanlar bundan daha yaxşı faydalana bilsinlər. Əsas məqsəd insanların həyat şəraitini yaxşılaşdırmaqdır. Aparılan islahatlar, verilən fərman və sərəncamlar bir daha onu göstərdi ki, dövlət bu məsələdə israrlıdır, daha dərin islahatlara da start verilib. Digər tərəfdən, Azərbaycan Avropa İttifaqı ilə saziş imzalamağa hazırlaşır, bu da islahatların dərinləşməsi üçün çox böyük əhəmiyyət kəsb edir".

**İqtisadçı alim Vüqar Bayramov sosial islahatların davamlı olacağını vurğuladı:** "Azərbaycan prezidenti sosial islahatların davam edəcəyini bildirib, eyni zamanda qeyd edib ki, əmək haqqı və pensiyalarda artım növbəti dövrlərdə də davam etdiriləcək. Sosial paketin təqdim edilməsi ilə yanaşı sosial islahatların davam etdirilməsi olduqca təqdirəlayiqdir. Hesablama Palatasının rəyinə əsasən 2019-cu ilin mövcud büdcə gəlirləri kontekstində dövlət büdcəsindən maliyyələşənlərin əmək haqlarının orta hesabla 10 faiz artırılması mümkündür.

Həssas qruplarla bağlı atılan addımlar çox vacibdir. Növbəti dövrdə də orta təbəqə həsab edilən vətəndaşlarımızın sosial təminatının gücləndirilməsi ilə bağlı addımların artılmasına ehtiyac var".

*Qeyd: Yazı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim olunur.*

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Şeyxin qudası danışdı, yenə ara qarışdı

## Pənah Hüseyn: "Bölücülük kimi fitnəkarlıq söhbətlərindən danışanların ağzından vurmaq lazımdır"

**Milli Məclisin keçmiş deputatı, Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadənin qudası Hacı Qalib Salahzadə demokrat.az-a açıqlamasında bildirib ki, Xalq Cəbhəsi hakimiyyətdə olanda Bakı camaatının onlara münasibəti pis olub: "Cəbhəçilər hakimiyyətdə olanda istəyirdilər ki, Bakı camaatı onlara dəstək versin. Ancaq Bakı camaatı onları sevmirdi. Bilirdilər ki, bunlardan dövləti idarə edən olmaz".**

Sabiq deputatın bu açıqlamasına AXC hakimiyyətinin dövlət katibi və baş naziri olmuş **Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** münasibət bildirib. Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Əbülfəz Elçibəy hakimiyyəti regionçuluğa əsaslanan hakimiyyət deyildi: "Dövlət idarəçiliyinə regionçuluq prizmasından baxmağı yanlış hesab etmişik və edirik. AXC hakimiyyətinin başında prezident Əbülfəz Elçibəy dururdu. İndi kimsə Əbülfəz Elçibəyi hansısa bir regionun nümayəndəsi və ya hansısa regionu istəməyən şəxs kimi təqdim edirsə, bu çox böyük yanlışdır. Eləcə də, məsələn, o dövrdə ölkənin ikinci rəsmi şəxsi olan Milli Məclisin sədri İsa Qəmbərin qarabağlıların nümayəndəsi kimi qələmə verilməsini də yanlış sayıram. Məhkəmə hakimiyyətinin başında Tahir Kərimli idi. Onun da şirvanlıların nümayəndəsi kimi qələmə verilməsini yanlış hesab edirəm. Çünki nə onlar, nə də ümumiyyətlə, AXC hakimiyyəti regionçu deyildi. Əsas məsələ hakimiyyət məsələsində xalqın siyasi iradəsinin ifadə ediləyən iqtidarın olmasıdır. Elçibəy iqtidarı da xalqın iradəsini ifadə edən hakimiyyət idi.



Antidemokratik situasiyalarda regionçuluq amili, regiona görə komandanın müəyyən olunması, vəzifələrin region amilinə görə bölüşdürülməsi fəsadlar törədir və qətiyyən yolverilməzdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından az qala 30 il keçir, lakin hələ də kimlərsə ortaya çıxıb regionçuluq, bölücülük mövqeyindən çıxış edirsə, bu, təəssüf doğurur. Bu çox mənasız söhbətdir və cəfəngiyyatdır".

**Pənah Hüseyn xatırlatdı ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasında, milli azadlıq mübarizəsində, demokratiya uğrunda mübarizədə, kommunist rejiminə qarşı mübarizədə Bakı və Bakı kəndlərinin fövqəladə rolu olub:** "Bakı və Kəndlər Birliyi, bu təşkilatın nümayəndələri milli demokratik hərəkatın tanınmış nümayəndələri idi. Bəzi adamların o dövrdə "bakılıların nümayəndəsi" kimi qələmə verdikləri Ayaz Mütəllibovun



hakimiyyətinin inqilabi yolla dəyişdirilməsində, milli demokratik hakimiyyətin iş başına gəlməsində Bakı və Kəndlər Birliyi, onun rəhbərliyi fövqəladə bir rol oynamışdı. Hələ müstəqilliyimiz bərpa olunmazdan öncə Moskva bakılıları, regiondan olanlarla, əsasən də Qərbi Azərbaycandan gələnlərlə münaqişəyə cəlb eləmək istəyirdi. Moskvanın bu planının qarşısının alınmasında Bakı və Kəndlər Birliyinin və onun rəhbərlərinin - Hacı Zakirin, Məşədi Əbdülün, Nəsir Ağayevin, Hacı Cəbrayılın, Məşədi Vaqifin, Füzuli Axundovun və digər hörmətli insanların böyük rolu olmuşdu. Bakı və Kəndlər Birliyinin minlərlə üzvü milli azadlıq mübarizəsində iştirak edirdi. Əbülfəz Elçibəyin milli azadlıq hərəkatının lideri kimi qəbul edilməsində, qələbəsində onların rolu böyük idi. Bütün bu və digər faktlar tarixdə ola-ola indi region məsələsini qaldırmaq səviyyəsizliyi ifadə edir və tarixi faktların da təhrif olunmasıdır. İstər Hacı Qalib olsun, istər başqası, indi kimlərsə xalqın içərisinə fitnə toxumu səpməsinlər! Zaman-zaman bakılı-rayonlu söhbətlərinin ortalığa atılması bizim düşmənlərimizin dəyirmanına su tökməkdir. Biz vahid Azərbaycan xalqıyıq. Odur ki, bölücülük kimi fitnəkarlıq söhbətlərindən danışanların ağzından vurmaq lazımdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Daha bir ölkə paytaxtı köçürür, bəs Bakı?

## Ekspert: "Belə olardısa, bütün əsas obyektlər həmin yerə köçəcəkdi və mərkəz boşalacaqdı"

**İndoneziya prezidenti Coko Vidodo ölkə paytaxtını Yava adasında yerləşən Cakartadan köçürmək qərarı qəbul edib. Bu barədə İndoneziyanın inkişafı planlaşdırma naziri Bambang Brodjonegoro açıqlama verib: "Prezident paytaxtın Yavadan kənara köçürülməsi ilə bağlı qərar qəbul edib. Bu, olduqca önəmli qərardır" - deyə nazir Nazirlər Kabinetinin iclasından sonra bildirib.**



Paytaxt Bakının da tez-tez köçürülməsi məsələsi gündəmə gəlir. Buna səbəb şəhərdə insan və avtomobil sıxlığının yaşanması, beynəlxalq tədbirlər zamanı ortaya çıxan çətinliklər göstərilir. Milyardlarla vəsait xərclənib yollar, körpülər çəkilsə də, faydası yoxdur. Bakıda sıxlıq açıq şəkildə hiss olunur.

Hələ 2014-cü ildə bu məsələ gündəmə gətirilmiş və köçürülmə planları hazırlanmışdı.

Paytaxtın köçürülməsi məsələsi bir neçə dəfə Milli Məclisdə də gündəmə gətirilmişdi. Bəzi deputatlar hesab edirdilər ki, Bakıda xüsusilə maşınların sıxlığından və yeni binaların tikilməsindən sonra ekoloji vəziyyət pisləşib. Təklifə görə, Bakı Azərbaycanın yalnız biznes mərkəzi olmalı, digər icra və idarəetmə strukturları isə ayrıca paytaxta köçürülməli idi.

Məlumdur ki, "Böyük Bakının Regional İnkişaf Planı" 2030-cu ilə qədər olan dövrü əhatə edir ki, plana əsasən, iri sənaye müəssisələrinin, ali məktəblərin, bəzi nazirliklərin paytaxtdan köçürülməsi planlaşdırılır. Qeyd edək ki, paytaxtın köçürülməsi üçün konstitusiyada dəyişiklik olmalıdır. Konstitusiyanı dəyişmək üçün isə referendum keçirilməlidir.

Səslənən planlara görə, paytaxt üçün yer Ələt ərazisindəki geniş dağətəyi sahə idi. Bu geniş ərazidə hələ SSRİ dövründə Atom Elektrik Stansiyasının (AES) tikintisi planlaşdırılmışdı. O zaman SSRİ-nin müvafiq idarələri, xüsusilə buradakı geoloji vəziyyəti (sürüşmə, süxurların möhkəmliyi, zəlzələ riski və sair) öyrəndikdən, geofiziki araşdırmalar apardıqdan sonra obyektin tikintisinə razılıq verib. Hətta Xəzərin səviyyəsi maksimum qalxarsa, bu ərazinin təhlükəsiz olacağı barədə proqnoz verilib. Amma SSRİ-nin süqutu bu prosesi dondurdu. Əgər plan baş tutsaydı, paytaxt deyilən əraziyə köçürülsəydi, Bakının əhali yükünü xeyli dərəcədə, ən azı 1 milyon nəfər yüngülləşdirməyə kömək edəcəkdi. 2014-cü ildə mediaya sızan məlumatlarda bildirilirdi ki, köhnə və yeni Bakının arasında sürət qatarı fəaliyyət göstərəcək. Bu gün Bakıdan Gəncəyə sürət qatarı fəaliyyət göstərir, ancaq paytaxt hələ də köçürülməyib. Layihəni ləngidən əsas səbəb manatın devalvasiyası göstərilir. Belə ki, manatın dollar qarşısında dəyər itirməsi bir çox meqalayihələrlə yanaşı, bu prosesi də ertələdi.

### Köçürülmə olarsa nədən başlamaq lazımdır?

**"Yeni Müsavat"a danışan ekspert Əzim Məsimov bildirib ki, hazırda məsələ bir o qədər də aktual deyil:** "Çünki biz böyük dövlət deyilik. Məsələn, Qazaxıstan paytaxtını köçürüb, yenidən qurdu. Çünki bu dövlətin ərazisi Qərbi Avropanın ərazisindən böyükdür. Ona görə də paytaxt ölkənin mərkəzinə köçürüldü. Bakı üçün məsələ aktual deyil. Vaxtilə mənim də arzum var idi ki, şəhərin ikinci mərkəzini yaradaq. Bunun Şıxov laylasında edilməsini düşünürdüm. Əlbəttə ki, belə olardısa, bütün əsas obyektlər həmin yerə köçəcəkdi və mərkəz boşalacaqdı. Lakin o zamankı merə bunu izah etmək mümkün olmadı. İndi Ələtə necə köçürmək olar? Ələtin normal vəziyyətə gəlməsi üçün 15-20 il lazımdır. Düşünürəm ki, Bakının bu ərazilərə köçürülməsi yersizdir. Hazırkı vaxtda paytaxt kimi Bakının olması daha məqsədəuyğundur. İndoneziyada paytaxtın köçürülməsinə ehtiyac vardı. Çünki ora da böyük ölkədir və məsələ aktualdır. Ölkədə həll olunası xeyli məsələ var. Böyük kütlə mövcuddur ki, onlar həyatlarından razı deyillər. İlk növbədə bunları yoluna qoymaq lazımdır. Bakıda hələ nə qədər köçürüləsi, qurulası ərazilər mövcuddur ki, orada işlər aparmaq olar".

Onu da qeyd edək ki, qonşu ölkələrdə paytaxt köçürülməsi prosesi tarixən baş vermiş hadisədir. Belə ki, 1923-cü ildə Mustafa Kamal Atatürkün təşəbbüsü ilə Türkiyənin paytaxtı Ankara elan edildi, İstanbul isə ölkənin əsas sənaye mərkəzi statusunu indi də daşımaqdadır. 1918-ci ildə Leninin təkidi ilə Moskva yeni paytaxt elan edildi, ancaq Sankt-Peterburq indi də Rusiyanın ikinci paytaxtı sayılır. 1998-ci ildə Nazarbayevin təklifi ilə Qazaxıstanın paytaxtı Astana elan edildi. Ancaq Almatı indi də ölkənin ən böyük şəhəridir. Bakı da bir neçə nazirliklərini "əldən verməklə" Azərbaycanın ən böyük şəhəri statusunu itirməyəcək, sadəcə, bu meqapolis izafi yükdən qurtulacaq.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Bu gündən avtomobillərdə pərdədən istifadəyə icazə veriləcək

**Bu gündən avtomobillərin arxa yan şüşələrində sənaye üsulu ilə hazırlanan jalüzlərdən istifadə etməyə icazə verilir.**

Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, bu icazə mayın 1-dən noyabrın 15-nə qədər olan müddətə davam edəcək.

Bu müddət ərzində sürücülər avtomobillərinin arxa yan şüşələrində standarlara uyğun olan jalüzlərdən istifadə edə bilərlər. Ləğv olunmuş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 23 dekabr 2004-cü il tarixli, 093 saylı əmri ilə təsdiq edilmiş AZS 122-2004 standartına 2013-cü ildə edilmiş dəyişikliklə nəqliyyat vasitələrinin arxa yan şüşələrinə, yəni sükan arxasında əyləşmiş sürücünün kürəyindən arxada qalan şüşələrə (məsələn, minik avtomobillərinin arxa qapılarının şüşələrinə) 1 may tarixindən 15 noyabr tarixinədək olan dövrdə sənaye üsulu ilə hazırlanan jalüzlər (pərdələr) çəkilməsinə icazə verilir.

Qeyd edək ki, Azərbaycanda pərdə və jalüzə görə tələbləri pozan sürücülər üçün 150 manat cərimə müəyyən edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

**Özünə "Amerikanın uşaqları"ndan ibarət komanda yaratmış Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya təzyiqləri qarşısında əyilməsi üçün uzun müddət gərək olmadı. Belə ki, hakimiyyətə gəlişinin "ili çıxmamış" Paşinyan ölkəsini ənənəvi forpost statusunda yenidən təqdim etməyə başladı.**







# Medvedyevi öz evində qonaq edən Paşinyanı Moskva bağışlayacaqmı?

## Ermənistanın baş nazirinin başı dərddə; Qərbdən gözlədiyi dəstəyi ala bilməyən Nikol Paşinyan yenidən Kremlə üz tutur; **politoloq:** "Bununla ictimaiyyətə göstərmək istəyirlər ki..."

Bu qənaətə gəlməkdən ötrü Ermənistanın baş nazirinin rusiyalı həmkarı Dmitri Medvedyevi evində qəbul etməsinə və onun hüzurunda olduqca aciz görünməsinə diqqət yetirmək lazımdır. Paşinyan Medvedyevin səfərini önəmli adlandıraraq deyib ki, öz evində ancaq "qiymətli qonaqları" qəbul edir. Əslində Rusiyanın baş naziri İrəvana Avrasiya İttifaqı Hökumətlərarası Şurasının iclasında iştirak etmək üçün gəlmişdi, Paşinyanın hansısa ailə tədbirində iştirak etmək üçün yox. Lakin Paşinyan Rusiya ilə Ermənistan arasındakı "buzları" əritməkdən ötrü Medvedyevin səfərindən maksimum yararlanmaq istədi.

Paşinyan ötən ilin mayında baş nazir seçiləndən sonra Rusiya-Ermənistan münasibətlərində durğunluq müşahidə olunmaqdadır. Həm may ayında, həm də növbədənkənar seçkilərdən sonra, ilin sonunda N.Paşinyan iki dəfə baş nazir seçilsə də, Rusiya prezidentinin təbrikini eşitmək ona müyəssər olmadı. Üstəlik, Paşinyan ölkəsinin KTMT-dəki nümayəndəsi general Yuri Xaçaturovu geri çağırıb və istintaqa cəlb etməklə, Putinin dostu olan Robert Köçəryanı həbsə atmaqla Rusiya liderinin əsəblərini tarıma çəkməyə çalışdı. Bunun nəticəsi olaraq V.Putin hətta həbsxanada olan Köçəryana təbriklər yollasa da, Paşinyanın baş nazir seçilməsini "unutdu".

Eyni zamanda erməni baş nazir ötkəm cavabları ilə ermənilərin dostu Sergey Lavrovu da hövsələdən çıxartdı. Amma maraqlısı budur ki, ötən bir ildə N.Paşinyanın ən çox üz tutduğu şəxs D.Medvedyev olub. Hesab olunur ki, indiki durumda rusiyalı baş nazir Ermənistanı xilas etməyə gəlib. Faktiki olaraq nə Avropa, nə də ABŞ İrəvanı düşdüyü dalandan çıxartmaq istəyir. Lakin sanksiyalar içərisində olan Rusiyanın Ermənistan adlı yükü daşımağa çox da həvəsli olmayacağını demək mümkündür.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da təsdiqləyir ki, Nikol Paşinyan hakimiyyətə gəlişinin bir ilində tamamən Rusiyaya əyilib:** "Halbuki yeni gələndə balanslı xarici siyasətə üstünlük verəcəyinə işarə edirdi. Bizdə də bəziləri yanlış olaraq "Rusiya Paşinyanı cəzalandıracaq" və "Rusiya-Ermənistan münasibətləri gərginləşəcək" kimi başlıqlar atırdılar. Bunların heç biri olmadı. Tam əksinə, Paşinyan Avropa və ABŞ-dan ümid etdiyi maliyyəni ala bilmədiyinə görə Serj Sərkisyandan daha çox Kremlin nökəri olmağı hazırdır. Təsadüfi deyil ki, Paşinyan son bir ildə İrəvana gələnlər arasında yalnız Rusiyanın baş naziri Dmitri Medvedyevi evinə qonaq dəvət edib. "Ermənistanda adətdir ki, evə yalnız əziz qonaqları dəvət edirlər" deyən Paşinyan sanki bununla demək istəyib ki, bu bir ildə İrəvana gələn başqa rəsmilərin, o cümlədən avropalıların və amerikalıların heç biri onun üçün əziz qonaq olmayıb".

**Rusiya-Ermənistan münasibətlərinin perspektivlərinə gəldikdə, E.Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Medvedyevin səfəri ayrılıqda götürülmüş işgüzar və rəsmi səfər mahiyyəti daşımır:** "O, Avrasiya İqtisadi Birliyinin baş nazirlərinin İrəvandakı toplantısında iştirak etmək üçün Ermənistana gəlib və bu toplantı çərçivəsində erməni rəsmilərlə görüşlər keçirib. Bəllidir ki, Rusiya ilə Ermənistan arasında sıx münasibətlər var. Ermənistan rəhbərliyi hər zaman çalışır daha çox yaltaqlıq edərək Rusiya rəsmilərini təmtəraqla qarşılasın, böyük qonaqlıqlar, ziyafətlər versin. Bununla da ictimaiyyətə göstərmək istəyirlər ki, Rusiya-Ermənistan birliyi əbədidir və Moskva Qarabağ məsələsində də Ermənistanı dəstəkləyir. Çox təəssüf ki, əslində burada bir həqiqət də var. Çünki Azərbaycanla münasibəti normal olsa belə, Rusiya münaqişənin həllini sürətləndirmir və işğalçıya demir ki, bölgədə sülhün və əmin-amanlığın bərpası üçün işğala son qoyulmalıdır".

*****

N.Paşinyanın durumunu ağırlaşdıran faktorlardan biri də daxildəki gərgin situasiyadır. 2016-cı ilin yayında İrəvan polisinin post-patrul alayına hücum etmiş "Sasna srer" silahlı qrupunun (terror qruplaşması Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra partiyaya çevrilib və seçkilərdə iştirak edib - red.) üzvlərinin azad edilməsi Ermənistan üçün "saatlı bomba" olub.

**Publika.az xəbər verir ki, bu haqda "Sputnik" agentliyinə müsahibəsində Ermənistan Respublika Partiyasının mətbuat katibi, parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov bildirib. Şarmazanovun fikrincə, baş nazir Paşinyanda Qarabağ probleminin üzrə konsepsiya yoxdur. O qeyd edib ki, Paşinyan problemlə bağlı mövqeyini bir neçə dəfə dəyişdirib.** "O deyirdi ki, onun konsepsiyası əvvəlki prezidentlərin - Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sərkisyanın konsepsiyalarına bənzəmir. Bu konsepsiya haradadır?" - Şarmazanov soruşub.

Mətbuat katibinin sözlərinə görə, Paşinyan anlamalıdır ki, o, yalnız öz tərəfdarları və silahdaşları üçün baş nazir deyil. Şarmazanov son bir il ərzində ölkədə nifrət və yalanın yayılmasından başqa heç nəyin olmadığını bildirib. O, Paşinyanı qaranlıq otaqda qara pişiyi axtarmamağa çağırıb. "Çünki pişik daim onun çiyinlərindədir" - Şarmazanov vurğulayıb.

**Ermənistanda narahatlıq var ki, N.Paşinyanın davranışları ölkəni məhvə apara bilər. Belə bir yanaşmanı bir sıra xarici ekspertlər də bölüşürlər.** "Biz Ermənistan tarixində misli görünməmiş halla üz-üzəyik. Hakimiyyət danışıqlar formatının dəyişdirilməsi barədə söhbətlər istisna olmaqla danışıqlar prosesini hansı prinsiplər əsasında aparmağa hazırlaşdığını bəyan etmir". Virtualaz.org xəbər verir ki, bu sözləri Ermənistanın hazırda həbsdə olan keçmiş prezidenti Robert Köçəryanın administrasiyasının rəhbəri olmuş Viktor Soqomonyan Rusiyanın "FAN" ("Federal Xəbərlə Agentliyi"-"Kremlin aşbazı" kimi tanınan oliqarx Yevgeni Priqojinə məxsusdur) agentliyinə müsahibəsində deyib. "Bununla bağlı çox böyük narahatlıqlar var. Konkret olaraq belə narahatlıq var ki, erməni tərəfinin bu siyasəti beynəlxalq birlik-Minsk Qrupunun həmsədrləri, vasitəçilər tərəfindən qeyri-konstruktiv olaraq qiymətləndiriləcək və hərbi əməliyyatların bərpasına gətirib çıxaracaq. Bu, olduqca arzuolunmaz ssenaridir" - Soqomonyan əlavə edib.

Köçəryanın tərəfdaşı ümid edir ki, Paşinyan hökuməti tezliklə formatla bağlı mövqeyini müəyyən edəcək və danışıqlar prosesində hansı prinsiplər əsasında iştirak edəcəyini açıqlayacaq. "Ancaq bundan sonra Qarabağ məsələsinin nizamlanması perspektivləri barədə danışmaq olar" - o bildirib.

Bu arada 2008-ci il martın 1-də İrəvanda baş vermiş qanlı olaylara görə Ermənistanın keçmiş prezidenti Robert Köçəryan, keçmiş müdafiə naziri Seyran Ohanyan, KTMT-nin sabiq baş katibi Yuri Xaçaturov və digər keçmiş dövlət rəsmiləri ilə bağlı ibtidai istintaq yekunlaşıb. Məhkəmə prosesinin isə heç də rahat keçməyəcəyi şübhə doğurmur.

Belə bir durumda Ermənistanın baş nazirinin Qarabağla bağlı konstruktiv mövqe sərgiləyəcəyi barədə ehtimallar səslənsə də, ciddi ekspertlər bunu real saymırlar.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Modern.az-a bildirib ki, ermənilər danışıqların mahiyyətindən qaçmağa çalışırlar:** "Son zamanlar XİN rəhbərləri, dövlət başçıları öz siyasi iradələrini ortaya qoyublar. Rəsmi İrəvan isə yenə də beynəlxalq ictimaiyyəti çaşdırmaq, tamam başqa məqamları gündəmə gətirməyə cəhd edir. Ermənistan danışıqlarda iştirak edə-edə sanki bu prosesdə yoxdur. Bizimlə müzakirə aparırmış kimi özlərini göstərsələr də, ortaya heç bir danışıq qoymurlar".

**Deputat Rasim Musabəyov isə bildirib ki, Azərbaycan Ermənistanın danışıqlar prosesini ləngitməsi üçün atdığı addımlara əhəmiyyət vermir:** "Əslində biz paralel olaraq, düşmənin başının üzərindən Rusiya ilə danışıqlar aparırıq. Çünki Ermənistan Azərbaycanın qarşısında duruş gətirmək iqtidarında deyil. Onu himayə edən Rusiya var. Biz isə onu mövqeyini nəzərə almadan hansısa sərt tədbirlərə əl atmaq imkanında deyilik. Ona görə Rusiya ilə, ABŞ-la, Ermənistana təsir edə biləcək, himayəçi dövlətlərlə danışıqları davam etdiririk. Ya həmin dövlətlər erməniləri ağıla gətirəcəklər, ya da Azərbaycan məcbur olub ayrı variantlara əl atacaq. Müharibə bərpa olunmayana kimi diplomatlar bu işi görməlidirlər. Bütün bunlarla bərabər Azərbaycan hərbi təsirlərini həyata keçirir, hərbi təlimlər, hazırlıqlar nümayiş olunur. Bütün bu addımlar Ermənistanı himayə edən dövlətləri məcbur edir ki, rəsmi İrəvana diktə etsinlər".

**Maraqlıdır ki, Ermənistanda keçirilən Avrasiya İqtisadi Birliyinin toplantısı ərəfəsində Belarus prezidenti Aleksandr Lukaşenko İrəvanın narahatlığını artıran mövqe sərgiləyib. O, ATƏT PA-nın sədri Giorgi Tsereteli ilə görüşü zamanı deyib ki, ATƏT Avropa regionunda münaqişələrə göz yummamalıdır.** "Bizim burada, ümumi evimizdə həll olunmalı xeyli problemlər - Dağlıq Qarabağ, Dnestryanı bölgə var. Bu siyahıya Ukrayna da əlavə olunub və bu, olduqca ciddi münaqişədir. Çoxları bunu müharibə olaraq da adlandırır" - Azərbaycanın dostu olan prezident bildirib. Bu mövqe ermənilərin status-kvonu saxlamaq cəhdinə cavabdır.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

# Bakının “Çukur”u - “Sovetski”də nələr olur...

## Sakinlər narazıdır, lakin bu dəfə onları narahat edən söküntü deyil, tikinti işləridir

**“Sovetski” kimi tanınan məhəllədə hələ də yaşamaqda davam edən sakinlər “Yeni Müsavat”ın redaksiyasına müraciət edərək, ərazidə mövcud olan binaların bərpa olunduğunu bildiriblər. Sakinlər söyləyirlər ki, toz-torpağın içərisində köçürüləcəkləri günü gözlədikləri halda, əks mənzərə ilə qarşılaşıblar-binalar təmir olunur...**

Vəziyyətin nə yerdə olduğunu öyrənmək üçün əraziyə yollandıq. Müşahidə etdik ki, doğrudan da metronun “Nizami” stansiyasının yaxınlığında, Cəfər Cabbarlı küçəsində yolboyu mövcud olan tarixi qədim binalar bərpa edilir. Ərazidə təmir-tikinti briqadası çalışıb, binaların üz hissəsində təmizləmə, yenidənqurma işləri aparırlar. İlk olaraq elə həmin ustalarla söhbət etdik. Ustalar bildirdilər ki, bu binaların təmir edilməsi ilə bağlı göstərişi Bakı Şəhər İcra Hakimiyyətindən alıblar: “Biz, sadəcə, olaraq təmir-tikinti ilə məşğul olan şirkətik. Sifarişi Bakı Şəhər İcra Hakimiyyətindən alıb işlərimizi görürük. Hazırda binanın üz hissəsində təmir prosesi gedir. Binaların bir çoxunun tarixi qədimdir. Lakin heç bir aşınmaya məruz qalmayıb. Köhnələr yalnız üz hissəsidir ki, onu da ağardıb, normal vəziyyətə gətiririk”.

Yada salaq ki, bu ilin mart ayında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov jurnalistlərə açıqlamasında “Sovetski” kimi tanınan ərazi ilə bağlı xüsusi planların hazırlandığını bildirmişdi. Lakin başçı planların nədən ibarət olduğunu konkret açıqlamamışdı. Sadəcə olaraq, vurğulamışdı ki, hazırda mütəxəssislər işləyir, maraqlı təkliflər hazırlanır, yaxın günlərdə ictimaiyyətə təqdim ediləcək. İctimaiyyətə təqdim olunmasa da, görünür, başçı elə bu kimi məsələləri nəzərdə tutub.

Onu da yada salaq ki, “Sovetski”də aparılan söküntülərin ikinci mərhələsi zamanı bir sıra tarixi qədim olan binalar sökülmüşdü. Bu isə ictimaiyyətdə böyük rezonans doğurmuşdu. Sərt təpki və reaksiyalara baxmayaraq, o zaman baş nazirin müavini olan Abid Şərifovun və Yasamal Rayon İcra Hakimiyyətinin göstərişi əsasında həmin binalar uçuruldu. İndi isə vəziyyətin dəyişdiyi müşahidə olunur.

Bəs “Sovetski”də digər ərazilər də təmir olunacaq?

**Bu sualla elə sakinlərin özlərinə müraciət etdik. Metronun “Nizami” stansiyasına yaxın ərazidə yaşayan sakin Əlipaşa Kərimov söylədi ki, məsələ ilə bağlı icra hakimiyyətindən bəzi məlumatlar əldə edib:** “Metronun yaxınlığında yerləşən binaların bəziləri qədim tikililərdir. Yəni bu binaların 150 yaşı olar. Ancaq əsas məsələ bu deyil. Bizə verilən məlumata görə, həmin binaların söküntüsü, orada qazıntı işlərinin aparılması metronun ”Nizami" stansiyasına zərər verə bilər. Çünki onsuz da bu stansiyanın tikintisi zamanı problemlər yaşanıb. Yadımdadır ki, o zaman stansiyanın açılışı ərəfəsində tunelə su dolmuşdu. İndi də həmin binalar digərləri kimi birmərtəbəli deyil. Bunların hamısının dərin bünövrəsi qazılıb. Tunel isə stansiyaya doğru getdikcə dayazlaşır. Burada bir tikili vardı. Onu sökürdülər, metronun işçiləri gəldilər əraziyə, söküntü dayandı. Məlum oldu ki, həmin tikilinin qarşısında metronun havalandırma sistemi var. İndi də həmin boru tikilinin qarşısındadır, bina isə tamamilə sökülməyib. Tez-tez metronun işçiləri gəlib, boruya baxış keçirirlər. Bu baxımdan da yuxarı küçələrdən fərqli olaraq Hüseynzadə küçəsindəki binalar nəzarət altındadır".

**“Sovetski”nin Cabbar Qaryağdıoğlu və digər küçələrində olan sakinlərlə də söhbət etdik. Onlar bildirdilər ki, söküntü ilə bağlı heç bir məlumat ala bilmirlər:** “Biz illərdir ki, gözləyirik. Hər il deyirlər ki, bir neçə ay sonra evlər söküləcək, camaat köçürüləcək. Ancaq nəticə yoxdur. Burada adamlar vardı ki, evlərini kirayə verib, bununla ailələrini dolandırırdılar. İndi bu küçələrdə heç kim kirayə qalmaq istəmir. Hər kəs elə bilir ki, ”Sovetski" sökülür. Ancaq sökülən bu ərazilər deyil, yuxarı hissələrdir".

Doğrudan da “Sovetski”də illərdir ki, söküntü işləri gedir. Ancaq hələ də son mərhələyə çatmaq mümkün olmayıb. Məlumat verək ki, “Sovetski” ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Həmin ərəfədə bir neçə sakin etiraz etsə də sonda onlar da verilən 1500 manat kompensasiya ilə razılaşıb, evlərini tərk ediblər. Hazırda həmin sakinlər Bakının müxtəlif yerlərində məskunlaşıblar. Həmin köhnə evlərin yerində isə park salınır. Parkda qızğın iş gedir və bildirilir ki, ilin sonuna qədər ərazidə plana uyğun, insanların rahat şəkildə asudə vaxtlarını keçirə biləcəkləri park hazır olacaq.







2018-ci ildə “Sovetski”də söküntünün ikinci dalğası başlayıb. Ümumilikdə isə məlumata görə, bu günə kimi 26 hektardan çox sahəni əhatə edən ərazidə 5 mindən çox yaşayış və qeyri-yaşayış obyektləri dövlət ehtiyacları üçün sakinlərlə əldə edilmiş razılığa əsasən satın alınıb. “Sovetski”də birinci mərhələdə 40 hektar ərazi boşaldılıb. 6 hektar ərazidə 7,1 kilometr uzunluğunda asfalt-beton örtüyünün sahəsi 87,6 min kvadratmetr təşkil edən Nəriman Nərimanov, Abdulla Şaiq, Balababa Məcidov, Mirzağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması başa çatdırılıb. Sökülən evlərə görə sakinlərə hər kvadrata 1500 manat olmaqla kompensasiya ödənilib.

Hazırda “Sovetski” ərazisi hündür binaların əhatəsində qalıb. Ortada qalan evlərin isə prosesin 4-cü mərhələsində sökülməsi planlaşdırılır. 4-cü mərhələnin nə zaman başlayacağı isə məlum deyil. Sakinlərin əksəriyyəti bildirir ki, dövlət kompensasiya məsələsinə yenidən baxmalıdır. Əsas olaraq da bunu gətirirlər ki, köçürülmənin birinci mərhələsindən bu günə qədər manat 2 dəfə devalvasiyaya uğrayıb, ucuzlaşıb. Eyni zamanda tikinti materiallarının da bəzilərinin qiyməti 2 dəfəyədək bahalaşıb. Belə görünür ki, köçürülmə başlayarsa, kompensasiya məsələsi yenə də narazılıq yaradacaq və məmur-vətəndaş mübahisəsi baş verəcək. Hazırda isə “Sovetski”də söküntüdən çox, tikinti və təmir işləri gedir...

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**
**Fotolar müəllifindir.**

# 07 modelli “tabut maşın”ların yasaqlanması gündəmdə

## Göygöldə 8 nəfərin ölümünə səbəb olan "VAZ-2107" və "VAZ-2106" markalı avtomobillərin qadağası vacibdir; ekspert isə deyir ki...

**Göygöldə 8 nəfərin ölümünə səbəb olan “VAZ-2107" və ”VAZ-2106" markalı avtomobillərin toqquşması sözügedən “tabut maşınları”nın hərəkətinə məhdudiyyət qoyulması məsələsini gündəmə gətirib.**

Azərbaycan yollarında “trafik canavarı”na çevrilmiş bu maşınların ağır qəzalar törətməsi ilk dəfə baş vermir. Elə ay olmur ki, bölgələrdə, magistral yollarda “VAZ-2107" və ”VAZ-2106" markalı avtomobillərin ölümlə nəticələnən avtoqəza törətmələri xəbərini eşitməyək.



Rusiya istehsalı olan bu maşınların Azərbaycana gətirilməsinə icazə olmasa da, ölkə daxilində fəaliyyət göstərən maşın bazarlarında kifayət qədər onların satışına rast gəlmək olur.

Bəziləri hesab edirlər ki, “VAZ-2107" və ”VAZ-2106" markalı avtomobillərin mərkəzi küçələrdə, prospektlərdə, magistral yollarda hərəkətinə məhdudiyyət qoyulmalıdır. Bu, çıxış yoludurmu, onlara qadağa qoymaq mümkündürmü?

**Nəqliyyat eksperti Ərşad Hüseynov “Yeni Müsavat”a bildirdi ki, həmin avtomobillərə qadağa qoyulması nə hüquqi, nə praktiki baxımdan mümkündür. Onun sözlərinə görə, bunun üçün qanuna dəyişiklik olunmalıdır. Bu da “Yol hərəkəti haqqında” Qanuna zidd qiymətləndiriləcək. Ə.Hüseynov hesab edir ki, üç vacib məsələyə diqqət yetirilməlidir:** “Birincisi, maarifləndirmənin, məsuliyyətin yüksəldilməsi, ikincisi, nəqliyyatın texniki yararlılığına diqqət yetirilməsi, nəhayət, yol hərəkəti nişanları ilə bağlı problemlərin aradan qaldırılmasıdır.

Ümumi istifadədə olan yollarda istənilən maşının yararlılıq problemi yoxdursa, sürülə bilər. Digər tərəfdən, maşınların magistralda hərəkətinə məhdudiyyət tətbiq olunmasına kim nəzarət edəcək? Başqa problemə diqqət etmək lazımdır: məndə olan məlumata görə, avtomobil parkının 50 faizi Rusiya istehsalıdır. Onların arasında xeyli sovet vaxtından bu yana istismar edilənlər var. Ona görə maarifləndirmə işləri lazımdır ki, bu tipli faciələr olmasın. Maarifləndirmə isə konkret işlər görülməsidir. Sürücü intizamsızlıq edirsə, araşdırma aparılmalıdır ki, haradan qaynaqlanır. Sürücü maşının texniki sazlığını bilməlidir və ona uyğun davranmalıdır".

Ekspert bildirdi ki, “Yol hərəkəti haqqında” Qanunda istismara yararlılıq barədə əlavə var. O bəndə əsasən istismara yararsız maşınlar yollarda olmamalıdır. Bunu da texniki baxışla, prinsipial proqramla aydınlaşdırmaq olar.

**❑ Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 93 (7263) 1 may 2019

# Düzgün diaqnoz və ucuzluq - İran klinikalarından reportaj

## Əməkdaşımız Ərdəbildə həkim müayinəsinin, dərmanların qiymətlərini öyrənib; buradakı "makler" şəbəkəsi azərbaycanlı xəstələri klinikalara daşıyır...

**- Mən bimərəm, xəstəyəm bala, bu da əlillik vəsiqəm, həkimə gedirəm.**

**- Keçin xanım, keçin. Həkimə gedən, xəstəsi olan başqa kim var?**

Azərbaycanın İranla olan Astara sərhədində bizim gömrükçülər sağlam vətəndaşlarla klinikalara gedənlər arasında fərq qoyurlar, onları başqa piyada xəttindən buraxırlar. Fəqət bu qayda hamıya şamil olunmur. Əgər əlillik vəsiqəsini göstərə bilməsən və yaxud taqətdən düşmüş ovqatda görünməsən, əlində bir yük görsələr hamı kimi sıxlığın içində növbə ilə sərhədi keçib İrana getməlisən.

**Həkim qəbulu 16:00-dan başlanır**

Bizim səfərimiz Ərdəbildə klinikalardan birinəydi. İrana heç vaxt getməyən oxuculara agah olsun ki, yalnız müayinədən keçib dərhal qayıtmaq istəyirlərsə, sərhədi səhər tezdən keçməyə ehtiyac yoxdur.

Çünki xeyli gözləməli olacaqlar. İranda özəl klinikalarda xəstə qəbulu saat 16:00-dan başlanır və ona qədər doktorlar dövlət xəstəxanalarında xidmət göstərirlər. Dövlət xəstəxanaları isə yalnız İran vətəndaşlarının üzünə açıqdır, bizim yox...

Onlarda tibbi sığorta olduğuna görə iranlılar dövlət xəstəxanalarında pulsuz müayinədən keçirlər, əməliyyat olunurlar və s. Həkimlər dövlətin tibb müəssisələrində iş saatı bitdikdən sonra əməkdaşlıq etdikləri özəl klinikalara üz tuturlar. Burada isə 16:00-dan axşama qədər həkim qəbuluna düşə bilərsiniz.

**Ərdəbilə 10 manata get və "MTN İrancell"ə qoşul...**

Beləliklə, biz sərhədi keçib, İranın Astara şəhərinə daxil oluruq. Burada qarşımıza çıxan bir "batalyon" taksi sürücüsü Ərdəbilə, Təbrizə aparmağı təklif edir. Onların yaxasından qurtulmaq çətindir, amma mümkündür.

Bir mühüm nüansı nəzərə almağınız vacibdir ki, həkimə getmək üçün qabaqcadan Ərdəbil, yaxud Təbrizdə tanış adam tapın, o, əvvəldən adınızı növbəyə yazdırsın, çatanda klinikada gözləməyəsiniz.

Bu dəllallığı taksi şoferləri də görə bilirlər, di gəl müəyyən qədər zamanınız gedəcək. Biz Bakıda olarkən tanış "makler" tapmışdıq və bütün işləri İrana getməmişdən yoluna qoymuşdu.

İranın Astara şəhərindəki taksi sürücülərinə gəlincə, onlar sizə qiymət "oxuya" bilərlər, amma Ərdəbilə 10 manatdan artıq verməyin və deyin ki, "ağa, bizi apar Ərdəbilə, Sərçeşmədə düşəcəyik". Sərçeşmə Ərdəbilin mərkəzi meydanıdır.

Bir haşiyəyə çıxaraq anons edək ki, İrana gedərkən onların mobil operatorlarından birindən kart alın, ucuzdur, rahatlıqla adamlara zəng edin, internetə qoşulun. Telefonunuzda "MTN İrancell" adı çıxanda həyəcanlanmayın, bizdəki "Azercell", "Bakcell" kimi bu da onların mobil operatorunun adıdır.

**Aşırımlarda şütüyən iranlı "Formula 1-çilər"...**

Biz də şirin azərbaycanlı ləhcəsində danışan taksi sürücüsünə 10 manat verib, Ərdəbilə yola düşürük.

İran Astarasından Ərdəbilə 80 kilometr məsafə var, ancaq yollar o qədər də hamar deyil, üstəlik, yolun əsas hissəsi aşırımlardır, uzaqda isə başıqarlı Savalan dağları görünür...







Sizi aparan taksi şoferləri sözün əsl mənasında "Formula 1" yarışçılarını geridə qoyarlar. Bizim üçün həddindən artıq riskli və təhlükəli sayılan bu cür avtomobil idarə eləmək onlarda adi bir haldır.

Sürücülər aşırımları elə bir sürətlə gedirlər, yük maşınlarının yanından elə bir ötmə əməliyyatları edirlər ki, adamın bağrı yarılır, fikirləşirsən ki, bu dəqiqə ya aşırımdan aşağı yuvarlanacaqsan, ya da qarşıdan gələn iri yük maşının altına girəcəksən.

Amma "Baba, narahat olma, biz hər gün belə sürürük, sən hələ qarın-buzun üstündə sürməyimizi görməmisən, yollara duz səpirlər, uçuruq", - deyə, guya səni arxayınlaşdırırlar.

Ərdəbilə gedərkən yolboyu düyü sahələri, kombinatlar, istirahət mərkəzləri qarşımıza çıxır. Sürücü deyir ki, yayda dincəlmək üçün ailəvi gəlib günü 10 manata ev kirayələyənlər olur, dağların ətrafında sərinləyirlər.

Yollarla bağlı bir təəssüratımız da odur ki, axşamlar hər tərəf işıqlıdır, qayıdarkən aşırımlarda heç bir əziyyət çəkmirsən. Bizdə isə gecə magistrallar alatoranlıq olur, göz-gözü görmür.

**"İraqla müharibədən çox, avtoqəzada adam itirmişik"**

Və nəhayət, aşırımlardan enib qaynayan, izdihamlı bir şəhərə daxil oluruq. Bura şəxsi maşınla gəlməyin, qarmaqarışıqlığın, nəqliyyatın xaosu içində başınızı itirərsiniz.

İranda avtomobil sürmək çox qəlizdir, nizam-intizamsızlıq hökm sürür, kim haradan istəyirsə dönür, dairəvi yola eyni vaxtda hamı girir və adama elə gəlir ki, bu dəqiqə maşınlar bir-birinə çırpılacaq.

Mən indiyə qədər getdiyim nə Gürcüstan, nə Türkiyə, nə Rusiya, nə də İraq şəhərlərində belə xaotik nəqliyyat görməmişdim.

Elə buna görədir ki, taksi sürücüsünün sözlərinə görə, İran İraqla müharibədən çox, avtomobil qəzalarında insan tələfatına yol verib.

Şəhər yol polisi isə tıxacların aradan qaldırılması üçün qeyri-adi sistem tətbiq edib. Belə ki, sarı rəngli avtomobillərin yoluna ağ rəngli maşınlar girə bilməzlər.

"Ağa, bax, qabaqdan gələn maşınların arasında bir dənə ağ rəngdə avtomobil görməzsən. Hər birinin öz yolu var.

Sarı maşınların yoluna girmək olmaz. Sən başqa yoldan girib evə, ya işə getməlisən ki, sarıların zolağına çıxmayasan"- deyə sürücümüz izah edir.

Onun sözlərinə görə, təhlükəsizlik kəməri taxmayan sərnişin cərimələnir. Bu da təxminən 30 manatdır. Şəhər isə səhərdən axşama kimi qaynayır, bazarlar, dükanlar açıqdır, insanlar yollarda, parklardadır...

**Klinikalara xəstə daşıyan "makler"lər və tibbi sığorta...**

Bütün bu müşahidələrin yekununda basabas, tıxac olan bir küçəyə daxil olub klinikaya gəlib çıxırıq. Bizə bələdçilik edəcək ərdəbilli balası tibb mərkəzinin qapısı ağzında gözləyirdi.

Orada onlarla belə "makler" işləyirlər. Bu şəxslər xəstə gətirdikləri üçün həm klinikadan pul alırlar, həm də müştəridən.

Həkim qəbuluna növbəsiz daxil oluruq, dediyimiz kimi, qabaqcadan adımızı yazdırmışdı. Yeri gəlmişkən, Ərdəbildə Astarada olduğu kimi, Azərbaycan manatı tədavüldə deyil, çalışın ki, həmin güvəndiyiniz "makler" pulunuzu tümənə çevirsin.

Məsələn, bizdən 80 min tümən, yəni 10 manat alaraq həkim qəbuluna ödəniş edir. Müayinədən sonra həkim bizi başqa bir özəl klinikaya rentgenə göndərir.

Bələdçimizlə taksiyə minirik, 10 min tümən, yəni 1 manat verərək həmin klinikaya gedirik.

Burada 260 min tümən (təqribən 32 manat) ödəniş edərək yaxın adamımızı müayinədən keçirirlər və 15-20 dəqiqə ərzində nəticələr təqdim olunur.

Şəhərdə "Babək", "Ərdəbil Meducal Center" və s. çoxlu klinikalar var. Diqqət çəkən mənzərə budur ki, İranın özəl klinikalarında "məzarlıq sükutu" var.

Çünki özləri dövlət xəstəxanalarında tibbi sığortadan istifadə edirlər. Klinikalarda isə ancaq Azərbaycandan gələnləri görmək olar. Tibb mərkəzlərinin binaları geniş, müasir avadanlıqlarla təchiz olunub. Bələdçimiz deyir ki, ayda 35 manat tibbi sığorta verirlər, müayinə, əməliyyat, doğuş və s. xərclər pulsuzdur. Üstəgəl, tibbi sığortaya verdikləri pullar gələcəkdə alacaqları pensiyaya müsbət mənada ciddi təsir göstərir.

**Müayinə və dərman ucuz, diaqnoz düzgün...**

Buradakı rentgen müayinəsinin nəticəsini geri qayıdaraq həkimə təqdim edirik və resept yazır. Bələdçimizlə elə klinikanın yanındakı aptekə daxil oluruq, cəmi 25 manat dərmanlara ödəniş edirik. Bir sözlə, bir saat ərzində iki müayinə, dərman xərcləri üst-üstə 65-70 manat edir. Bakıda isə özəl klinikalarda həkim qəbulu 35-40 manatdan başlanır və biz 95 manat kompüter tomoqrafiyasına ödədiyimiz halda Ərdəbildə eyni müayinəyə 32 manat verdik. Dərmanlara gəlincə, İran öz vətəndaşlarının tibbi sığortası olduğu üçün dərmanı özlərinə ucuz satır, bizə isə baha... Məsələn, iranlılar 5 manata aldığı dərmanı bizə 10 manata verirlər. Ancaq yenə də Azərbaycanla müqayisədə bizim üçün ucuz hesab olunur.

Bəzi dərmanların resepti yazılmasa, oradakı aptekdən sizə verməyəcəklər. Bir məsələni də nəzərə alın ki, İranda aptekdən dərman alarkən həkimin reseptini özünüzdə saxlayın.

Çünki geri qayıdanda Azərbaycan gömrüyünü keçərkən dərhal siqnalizasiya işə düşür, gömrük əməkdaşları üzərinizdə dərman olduğunu müəyyən edirlər və sizdən resept tələb olunur.

Resepti və dərmanları təqdim edirsiniz, əldəki cihazla yoxlanışdan keçirib sizi buraxırlar. Əgər resept olmasa, həmin dərmanlar aktlaşdırılır. Sizsə işinizi rahatlaşdırdığı üçün ərdəbilli bələdçiyə 10 manat zəhmət haqqı verib, "təşəkkür mi konəm" deyirsiniz, aşırımlı yollarla Ərdəbildən Astaraya yola düşürsünüz.

Beləliklə, azərbaycanlıların İran həkimlərinə niyə getməsi aydınlaşır: düzgün diaqnoz və ucuzluq. Ərdəbillilər demişkən, canınız ağrımasın, ağa...

❑ **Emil SALAMOĞLU**
**Ərdəbil - Bakı**

# YENİ MÜSAVAT

Son səhifə

N 93 (7263) 1 may 2019




## Pişik qadının 50 min dollar qazanmasına az qala mane olurdu

Amerikanın Merilend ştatının sakini lotereyada 50 min dollar qazansa da, onu ancaq iki ay sonra götürə bilib. Bu barədə UPİ xəbər portalı məlumat verib. Amerikalının sözlərinə görə, o, fevral ayında Baltimorda bir neçə lotereya bileti əldə edib. Adəti üzrə isə həmin biletləri bir kənara qoyub.

Aradan bir neçə ay keçəndən sonra, təmizlik zamanı qadın yatağın arxasında bir neçə kağız aşkarlayıb. Böyük ehtimalla həmin kağızları onun pişiyi tumboçkadan yerə tullayıb və o da onları unudub. Sənədlər arasında lotereya biletləri də olub. O, lotereya biletlərini yoxlayıb və onlardan biri uduşlu çıxıb. Qadın milli lotereya Powerball-un təşkilatçıları ilə əlaqə saxlayıb və öz mükafatını alıb. Qadın qeyd edib ki, uduşla bağlı böyük planlar qurmayıb. O, bu pulların bir qismini evinin təmirinə həsr etmək istəyir. Eyni zamanda pulun 10 faizini kilsənin hesabına köçürmək planı var. O, pulunun bir hissəsini insanlara kömək üçün istifadə etmək istəyir.

# Əsəbilik insanı arıqlamağa qoymur



ABŞ-da olan Milli Yaşlanma İnstitutunun 1988 adam üzərində 50 il müddətində icra etdiyi araşdırma nəticəsində təsdiqlənib ki, insanın xarakteri onun bədən ölçülərinə, daha dəqiq desək, artıq çəki almasına təsir edir. Araşdırma zamanı 14.521 iştirakçının dürüstlük, vicdan, açıq fikirlilik, məmnuniyyət, əsəbilik kimi 30 ayrı xüsusiyyəti araşdırılıb. İnstinktləri ilə hərəkət etməyə daha uyğun olanların, instinktlərini yatıra bilənlərlə müqayisədə ideal kilolarına nisbətlə 10 kq artıq çəki aldığı üzə çıxıb. Amma məmnuniyyət nisbəti aşağı, rəqabətçi, əsəbi və ictimai dəyərlərə çox əhəmiyyət verməyənlərin isə bədən kütlə indekslərinin lazım olandan çox olduğu müəyyən edilib. Əsəbi insanlar həyatları boyunca çəki vermə balanssızlıqları yaşayır və sonunda çəki almağa daha meylli olurlar. Araşdırma nəticəsində mütəxəssislər bunun müalicəsində yeni-yeni üsullar tətbiq edilə biləcəyini söyləyiblər.

# Dostları öldü, amma onu belə "yad etdilər"...



İngiltərənin "Teleqraf" qəzetinin xəbərinə görə, 64 yaşındakı Ronni Hopperin başına faciəvi hadisə gəlib. O, dostları ilə birgə tətilə getməyi planlaşdırsa da, xərçəng xəstəliyinə tutularaq dünyasını dəyişib. Amma ölmədən öncə yazdığı vəsiyyətə uyğun olaraq, bədəni yandırılıb. Hopper ölümündən əvvəl dostlarına vəsiyyət edib ki, küllərini özəl bir balıq yemi ilə qarışdıraraq ondan balıq tutulmasında istifadə etsinlər. Mərhumun dostları, 65 yaşındakı Fairbass və Dale Tayland tətilləri zamanı dostlarının vəsiyyətinə əməl edərək yanlarında götürdükləri külləri balıq yemində istifadə ediblər. Nəticədə isə 72 kilo ağırlığında bir syam sazanı tutublar.

Fairbrass insanı təəcübləndirən bu hadisənin detallarını belə danışıb: "Ronun bizimlə səfərə gəlməyəcəyi ciddi xəyal qırıqlığı yaratdı. Çünki bizimlə keçirəcəyi bir tətili çox arzulayırdı. Amma o, balığı ovlayanda yanımızda idi. Gölün ən böyük balıqlarından birini Ronun sayəsində tutmağımız da bir tale, acı alın yazısı kimi görünür".




**QOÇ** - Düşünməyin ki, qarşınızda duran vəzifələri yerinə yetirmək mümkünsüzdür. Əslində daxili tənbəlliyinizi bir kənara atmaqla, məsləhətlərdən yararlanmaqla hər şeyə nail ola bilərsiniz.

**BUĞA** - Bu gözəl gündə bütün gücünüzü beyninizi artıq yüklərdən təmizləməyə həsr edin. Paralel iş və münasibətlər sizi bərk yorduğu üçün bir qədər təcrid olunun. İşdə özünüzü çox da yormayın.

**ƏKİZLƏR** - Qarşınızda nə qədər planlarınız varsa, hamısını günün ikinci yarısına saxlayın. Çünki məhz deyilən ərəfədə uğur məqamlarınız başlayacaq. O vaxta qədərsə ənənəvi fəaliyyətlə məşğul olun.

**XƏRÇƏNG** - Nahara qədər emosional sabitliyinizi qorumağa çalışın. Dəyərsiz şeylər barədə düşünüb enerjinizi azaltmayın. İndi sizə etibarlı dostlar və pul lazımdır ki, buna da dediklərimiz sayəsində çata bilərsiniz.

**ŞİR** - Tanrının ixtiyarınıza verdiyi bu təqvimdən pis heç nə gözləməyin. Əgər günaha aparan işlərdən uzaq dursanız, müjdələrin şahidi olacaqsınız. Az qala unutduğunuz qohumlarınızla əlaqə yaradın.

**QIZ** - Bu gün işdən daha çox müzakirələrə vaxt ayırın. Çünki apardığınız söhbətlər yaxın yarım ilin perspektivlərinə birbaşa təsir göstərəcək. Hər bir danışıq detalına xüsusi diqqət yetirin.

**TƏRƏZİ** - Ümumi mənada düşərli vaxtdır. Əvvəlki günlərin gərginliyindən əsər-əlamət qalmayacaq. Saat 14-dən sonra gücünüzə güc qata bilən insanlarla görüşləriniz mümkündür ki, bundan imtina etməməlisiniz.

**ƏQRƏB** - Kosmik fon bürcünüzə əsrarəngiz bir gün yaşadacaq. Hər kəslə mülayim və ədalət çərçivəsində davranın ki, rəğbət qazanasınız. Səfərə çıxmaq uğurlu olsa da, axşam saatlarında diqqətli olun.

**OXATAN** - Ünsiyyətdə olduğunuz hər kəsi ittiham etməkdənsə bir qədər öz üzərinizdə redaktələr edin. Dar macalda enerjinizi heç olmasa, sevgidən alın. Bu gün həqiqətə söykənmək, bağışlamaq çox gözəl olar.

**OĞLAQ** - Qarşınızda maraqlı bir təqvim durub. İstər qarşılıqlı münasibətlərdə, istərsə də fəaliyyət müstəvisində sizi qane edən proseslərlə rastlaşacaqsınız. Səfərlər planınızı isə bugünlük təxirə salın.

**SUTÖKƏN** - Təxminən saat 12-yə qədər daxili gərginliyiniz xeyli səngiyəcək. Bu da rastlaşdığınız hadisələrdən doğacaq. Amma gərək siz də situasiyalara müvafiq davranasınız. Duzlu qidalardan qaçın.

**BALIQLAR** - Bacardığınız qədər bu təqvimi təmkinli şəkildə yola salın. Başqalarının şəxsi işlərinə müdaxilə etməyin. Daha çox adi işlərin həlli ilə məşğul olun. Bu gün qurban kəsmək, ziyarətə getmək çox düşərlidir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən ideal yuxu vaxtı budur

Həkimlər xəstəliklə mübarizə aparmaq üçün saat 23:00 ilə 02:00 arasında yatmağı vacib sayır. Melatonin ifraz olunan saatları qaçırmamaq lazımdır. Melatonin hormonu xüsusilə gecə 11-dən sonra ifraz olunmağa başlayır və gecə 2-yə qədər davam edir. Səhərə doğru isə yavaş-yavaş azalır. Ona görə xüsusilə bu saatlardakı yuxunu qaçırmaq olmaz. Təbii melatonin hormonunun ən çox qaranlıqda ifraz olunduğunu unutmamaq lazımdır. Bu səbəblə yatdığınız yerin qaranlıq olması, gecə lampasından istifadə edilməməsi çox vacibdir. Ehtiyac duyulan yuxu saatı insandan-insana dəyişir. Kimi 8 saatlıq yuxuyla özünü gümrah hiss edər, kimi isə 6 saatlıq yuxu ilə kifayətlənər. Buna görə mütəxəssislər insanın, gecə orta hesabla 7 saat yatmasını məsləhət görür. 6 saatdan az yatan insanlarda ürək xəstəliklərinə daha çox rast gəlinir. Gündüz yuxularının çox əhəmiyyəti yoxdur. Əhəmiyyətli və lazımlı olan gecə 11-dən sonra yatmaqdır. Ancaq sağlam və keyfiyyətli yuxu üçün qaranlıq mühit şərtdir. Televizora baxaraq yatmaq isə orqanizm üçün son dərəcə ziyandır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190